# YENİ AZƏRBAYCAN

30 sentyabr 2025-ci il, çərşənbə axşamı
№ 175 (7002)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

## Nizami yurdunda böyük idman bayramı



Bax səh. 2

# Nilayların ümid yeri...



## Dövlət ən çətin məqamlarda vətəndaşlarının yanındadır

Bax səh. 3

## Bakının yeni iqtisadi və siyasi nizamda rolu təsdiqlənir və təqdir olunur

Bax səh. 4



Bax səh. 3

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkını ziyarət ediblər


Davamlı regional inkişafın gözəl nümunəsi — Bax səh. 2

Azərbaycan-BMT əlaqələri dinamik inkişafa malikdir — Bax səh. 4

İnnovasiya, investisiya və texnologiyalar üçün unikal platforma — Bax səh. 5

Biznesə sərmayələr üçün yeni mənbə — Bax səh. 6

Virciniya ştatında mühüm görüş... — Bax səh. 7

Qərb Moldovada qələbə qazandı... — Bax səh. 7

# Nizami yurdunda böyük idman bayramı

## Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimi keçirilib

Son illərdə mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ənənə halını alıb ki, bu da dünyada ölkəmizin nüfuzunun artmasının əyani təsdiqidir. O cümlədən, digər istiqamətlərdə olduğu kimi, beynəlxalq idman ictimaiyyəti də respublikamıza böyük inam bəsləyir. İndiyədək Azərbaycan bir sıra beynəlxalq səviyyəli idman yarışlarına böyük uğurla ev sahibliyi edib. Bu günlərdə isə respublikamızın regionlarında III MDB Oyunları keçirilir.

### Hər bir ürəkdə qələbə işığı yanacaq

Sentyabrın 28-də Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Tədbirdən əvvəl Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşüblər.

Sonra dövlətimizin başçısı və birinci xanım açılış mərasimini izləyiblər.

Əvvəlcə Azərbaycan Respublikasının üçrəngli Bayrağı arenaya gətirilib və Dövlət Himnimizin sədaları altında ucaldılıb.

Sonra III MDB Oyunlarında iştirak edən ölkələrin idmançılarının təntənəli paradı olub.

Açılış mərasimində Azərbaycan Bayrağını karateçimiz Asiman Qurbanlı və taekvondoçumuz Zemfira Həsənzadə arenaya gətiriblər.

Sonra III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov çıxış edib. Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı, qonaqları və idmançıları salamlayan Təşkilat Komitəsinin sədri deyib:

-Bu gündən etibarən Gəncə və daha altı şəhərimiz - Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi III MDB Oyunlarına ev sahibliyi edəcək.

On gün davam edəcək yarışlarda Müstəqil Dövlətlər Birliyi ölkələrindən, həmçinin onlara qatılan Türkiyə, Pakistan, Oman, Kuba və Küveytdən 2400 nəfərlik idman nümayəndə heyətləri iştirak edəcək.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətəni, qədim mədəniyyəti və zəngin tarixi olan Gəncə hazırda Müstəqil Dövlətlər Birliyinin idman paytaxtıdır.

Əminik ki, yeni istifadəyə verilən möhtəşəm Gəncə Stadionunda açılışını etdiyimiz bu idman oyunları dostluq, sülh, qarşılıqlı hörmət meyarlarına əsaslanan ədalətli mübarizə meydanı olacaq, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın genişlənməsinə, münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verəcək.

Azərbaycanda idmanın inkişafına böyük əhəmiyyət verilir. Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmiz beynəlxalq idman ailəsinin nüfuzlu və etibarlı üzvlərindən birinə çevrilmişdir. Azərbaycan müxtəlif illərdə ən mötəbər beynəlxalq yarışlara ev sahibliyi etməklə bacarıqlı təşkilatçı kimi özünü təsdiq etmişdir. Bakıda 2015-ci ildə Birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də müxtəlif növlər üzrə dünya və qitə çempionatları yüksək səviyyədə keçirilmişdir.

İnanırıq ki, III MDB Oyunları da bu baxımdan əlamətdar olacaq. Oyunların paytaxt Bakıdan kənarda keçirilməsi ölkəmizin regionlarında da güclü infrastrukturun, idmanın inkişafı üçün lazımi şəraitin yaradıldığını göstərir.

İrimiqyaslı idman yarışlarının ölkənin regionlarında təşkilinə göstərdiyi qayğıya və verdiyi dəstəyə görə Azərbaycan Prezidentinə dərin minnətdarlığımızı ifadə edirik.

Təşkilat Komitəsi olaraq bildiririk ki, şəhərlərimiz MDB Oyunlarının keçirilməsinə, idmançıları azərbaycanlılara xas qonaqpərvərliklə qəbul etməyə tam hazırdır.

Əziz idmançılar və qonaqlar, əminik ki, Azərbaycan bu günlər ərzində sizin üçün ikinci eviniz kimi doğma olacaq. Siz gözəl və zəngin təəssürat toplayacaq, yeni dostlar qazanacaqsınız.

Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarında iştirak edən bütün atletlərə uğurlar arzulayırıq. Ümidvarıq ki, onların əzmkarlığı layiqincə qiymətləndiriləcək.

Bu idman bayramı ölkələrimiz arasında həmrəyliyin möhkəmlənməsində yeni bir mərhələ açacaq və Oyunların şüarında deyildiyi kimi, hər bir ürəkdə qələbə işığı yandıracaq.

### Gəncədə xalqların idman birliyinin parlaq rəmzi

Açılış tədbirində Oyunların iştirakçılarını salamlayan Müstəqil Dövlətlər Birliyinin Baş katibinin müavini Nurlan Seytimov tədbir iştirakçılarını Baş katib Sergey Nikolayeviç Lebedevin məktubu ilə tanış edib:

“Xalqlarımızın idman birliyinin parlaq rəmzinə çevrilən bu möhtəşəm idman hadisəsi yalnız atletlərin ən yüksək peşəkarlığını nümayiş etdirmək üçün bir platforma deyil, həm də MDB ölkələri arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, mədəniyyət və idman sahələrində çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edir.

MDB Oyunları idmanın dövrümüzün ən güclü həmrəylik simvollarından biri olduğunun bariz nümunəsidir. Bir neçə gün ərzində Azərbaycan Respublikasının yeddi şəhəri iştirakçıların və tamaşaçıların zövq alacağı möhtəşəm bir idman bayramına ev sahibliyi edəcək.

Gənclərin çoxsaylı çağırışlarla üz-üzə qaldığı dövrdə idman zamanla sınaqdan keçmiş bir yolu - intizam, məqsədyönlülük və sağlam həyat tərzi yolunu təşviq və təklif edir.

Bu keyfiyyətlər gəncləri yalnız uğurlu idmançılara deyil, həm də istənilən fəaliyyət sahəsində əsl liderlərə çevirir.

Əminəm ki, III MDB Oyunları Birliyin idman hərəkatı tarixində parlaq iz buraxacaq və humanitar əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək.

Bütün gənc atletlərə idman qələbələri, yeni rekordlar və şəxsi inkişaf arzulayıram. Qoy bu Oyunlar həm idman arenalarında, həm də ölkələrimizin rifahı naminə görülən yaradıcı işlərdə yeni nailiyyətlərə ruhlandırsın”.










### Gəncə səması al-əlvan atəşfəşanlığa qərq olub

Daha sonra idmançıların və onların məşqçilərinin andiçmə mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev III MDB Oyunlarını açıq elan edib.

Tədbir bədii hissə ilə davam edib.

Sonda Gəncə səması al-əlvan atəşfəşanlığa qərq olub.

### Atletlər 23 idman növü üzrə mübarizə aparırlar

Qeyd edək ki, Gəncə şəhəri III MDB Oyunlarının “İdman Paytaxtı” seçilib. Bu qərar MDB-yə üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının Belarusun paytaxtı Minskdə keçirilən iclasında qəbul edilib.

Oktyabrın 8-dək davam edəcək III MDB Oyunlarında yarışlar 12 idman məkanında keçiriləcək və atletlər 23 idman növü üzrə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə aparacaqlar. Bundan əlavə, qalib komandaların uğuruna ən çox töhfə verən idmançıların da xüsusi mükafatlarla təltif edilməsi nəzərdə tutulub.

Xatırladaq ki, I MDB Oyunları 2021-ci ildə Rusiyanın Kazan şəhərində, II Oyunlar isə 2023-cü ildə Belarusun paytaxtı Minskdə keçirilib.

***Mübariz FEYİZLİ***

# Davamlı regional inkişafın gözəl nümunəsi

Azərbaycanın timsalında regional inkişafın gözəl nümunəsini izləmək mümkündür. Son iyirimi ildən artıq müddətdə Prezident İlham Əliyevin imzaladığı sərəncamlar əsasında qəbul olunan regionların sosial-iqtisadi inkişafına dair müvafiq dövlət proqramlarının uğurlu icrası çərçivəsində reallaşdırılan layihələr sayəsində ölkənin bütün bölgələrində yeni reallıqlar yaranıb. Qürurverici haldır ki, hazırda əksər regionlarla paytaxt Bakı və digər iri şəhərlər arasında müxtəlif parametrlər baxımından fərq aradan qalxıb. Böyük həcmlərdə dövlət investisiya qoyuluşu hesabına yaradılan müasir infrastruktur, sənaye müəssisələri, aqroparklar bölgələrimizdə qeyri-neft sektorunun, özəl bölmənin inkişafına güclü stimul verməklə yanaşı, yerli sakinlərin biznesə qoşulmalarını, əmək bazarına çıxışlarını əhəmiyyyətli dərəcədə asanlaşdırır ki, bu da son nəticədə  bütün ölkə üzrə yüksək vətəndaş məmnunluğunu təmin edir. Bu günlərdə Prezident İlham Əliyev  regionlara növbəti səfəri çərçivəsində Gəncə şəhərində və Yevlax rayonunda daha bir neçə müasir infrastruktur obyektinin açılışına qatılıb və Özünün dəyərli tövsiyələrini verib.

### Bölgələrdə müasir idman infrastrukturu yaradılır

Müasir dövlət kimi inkişaf edən Azərbaycanda bütün ölkə üzrə idmanın kütləviliyinə nail olunması hədəflənib. Bu məqsədlə 2004-cü ildən bəri respublikamızda 50-yə yaxın olimpiya-idman kompleksi tikilərək istifadəyə verilib. Bu idman komplekslərində bir qayda olaraq yeniyetmələrin və gənclərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün hər cür şərait yaradılır. Daha bir belə yüksəksəviyyəli idman obyekti Yevlaxda istifadəyə verilib. Prezidenti İlham Əliyev sentyabrın 27-də Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, tikintisinə 2024-cü ildə başlanılan kompleksin ərazisi 5,8 hektardır. Burada açıq havada idman meydançaları, stadion, 1100 tamaşaçı yerlik universal idman, güləş, cüdo, bədii gimnastika, boks, kikboksinq, taekvondo, karate, fitnes və trenajor zalları, üzgüçülük hovuzu yaradılıb. Bunlardan başqa, kompleksdə iclas zalı, kafe, hakim, məşqçilər, həkim, şərhçilər üçün otaqlar, restoran, 42 yerlik mehmanxana binası da fəaliyyət göstərəcək.

Azərbaycanın bu günlərdə ev sahibliyi etdiyi Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil olunur.

Son illərdə idman sahəsində görülmüş məqsədyönlü işlər nəticəsində Azərbaycan beynəlxalq yarışların keçirildiyi əsas mərkəzlərdən birinə çevrilib. Müxtəlif idman yarışları üzrə Dünya və Avropa çempionatları, həmçinin Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 kimi mötəbər tədbirlərin uğurla təşkili Azərbaycanın bu sahədə yüksək təşkilatçılıq bacarığını nümayiş etdirib. Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarının Azərbaycanda keçirilməsi də ölkəmizə beynəlxalq idman ictimaiyyəti tərəfindən olan etimadın təzahürüdür.

### Gəncənin nəqliyyat parkının yenilənməsinə böyük töhfə

Regionlarda xidmət sektorunun yüksək səviyyəyə qaldırılması da Azərbaycanın yeni reallıqları sırasında yer alır. Azərbaycan dövlətinin əsas məqsədlərindən biri vətəndaşlar üçün bütün rahatlıqların  təmin edilməsidir. Bu hədəfə nail olmaqdan ötrü ardıcıl addımlar atılır. Prezident İlham Əliyev sentyabrın 27-də “BakuBus” MMC-nin Gəncə Avtoparkının açılışında iştirak edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlətimizin başçısına avtoparkda yaradılan şərait barədə məlumat verib.

Üç yüz yerlik avtobus parkının inşasına bu ilin yanvarında başlanılıb. Ümumi sahəsi 10 hektar olan parkda texniki baxış və təmir postları, avtomatlaşdırılmış uçot sistemli yanacaq təsərrüfatı, saatda 60 avtobusun yuyulması gücünə malik kompleks inşa edilib. Avtobus parkının yaradılması ilə 675 nəfər işlə təmin olunub. Onlardan 553 nəfəri sürücü, 122 nəfəri isə inzibati və texniki heyətdir.

“BakuBus” MMC Gəncə şəhərində 18 mövcud və 2 yeni marşrut xətti üzrə fəaliyyət göstərəcək. Şəhərə yüksək ekoloji standarta - EURO6-ya cavab verən 280 avtobus gətirilib ki, onlardan da 45-i 54, 186-sı 63, 49-u isə 102 sərnişin tutumuna malikdir.







Bu layihənin həyata keçirilməsi, ilk növbədə, paytaxt Bakıdan sonra respublikanın ən böyük şəhəri olan Gəncənin nəqliyyat-sərnişin daşıma infrastrukturunun müasirləşdirilməsi baxımından çox mühüm rol oynayır. Bu, eyni zamanda, sərnişinlərin rahat, təhlükəsiz şəkildə mənzilbaşına çatmasına imkan yaradır, şəhərin nəqliyyat parkının yenilənməsinə böyük töhfə verir. Həmçinin yeni iş yerlərinin açılmasında da belə layihələrin rolu önəmlidir.

Gəncə şəhəri üzrə aparılan genişmiqyaslı təhlil və araşdırmalar nəticəsində marşrut şəbəkəsi yenidən formalaşdırılıb. Mövcud 32 marşrut xəttində optimallaşdırma aparılıb, 22 marşrut xəttinin fəaliyyət göstərməsi müəyyən olunub.

Əhəmiyyətli yeniliklərdən biri də ictimai nəqliyyatda qabaqcıl rəqəmsal texnologiyaların tətbiqidir. Gəncədə fəaliyyət göstərən bütün avtobuslarda gedişhaqqını “CityCard” nağdsız ödəniş sistemi, istənilən bank kartları, həmçinin mobil ödəniş vasitələri ilə ödəmək mümkündür.

Sərnişindaşıma sahəsinin optimallaşması çərçivəsində Dəmiryol Vağzalının qarşısında Nəqliyyat Mübadilə Məntəqəsi yaradılıb. Burada dəmir yolu ilə avtomobil nəqliyyatının qarşılıqlı əlaqəsi öz əksini tapıb.

Əhalinin gediş-gəlişi və sıxlığın çox olduğu ərazilərdə 34 müasir dayanacaq pavilyonu quraşdırılıb.

Yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində 97 küçədə asfalt örtüyünün yenilənmə işləri aparılıb, 128 kilometr xətlənmə işləri icra olunub. Şəhərdə təhlillər aparılaraq mikromobillik zolaqlarının salınması üçün uyğun yerlər müəyyənləşdirilib.

Taksi nəqliyyat vasitələri üçün cəlbetmə məntəqələrinin müəyyən edilməsi istiqamətində də işlər aparılıb və 10 ünvanda taksi duracağı üçün yer təyin olunub.

### Gəncə şəhər stadionunda istər yerli, istərsə də beynəlxalq səviyyəli yarışlar keçiriləcək

Hazırda respublikamızın ikinci ən böyük şəhəri olan Gəncədə əlamətdar günlər yaşanır - Nizami yurdu  III MDB Oyunlarına ev sahibliyi edir. Oyunlara hazırlıq çərçivəsində şəhərdə böyük miqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib, o cümlədən şəhər stadionunun inşası reallaşdırılıb. Prezident İlham Əliyev sentyabrın 27-də Gəncə Stadionunun açılışında iştirak edib.

Bildirilib ki, ərazisi 10 hektardan çox olan stadionun tamaşaçı tutumu 15 min 343 nəfərdir. Ərazidə AFFA tərəfindən köməkçi məşq meydançaları və futbol akademiyasının binası tikilib. Stadionda futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və digər zəruri sahələr yaradılıb. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən arena müasir işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik sistemləri ilə təchiz olunub.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü ilin oktyabrında stadionun tikintisi ilə bağlı Sərəncam imzalayıb. Onun təməli isə ötən ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub. Bu ilin avqustunda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Belə müasir idman arenalarının istifadəyə verilməsi ölkəmizin digər bölgələrində olduğu kimi, Gəncədə də istər yerli, istərsə də beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə hərtərəfli şərait yaradacaq.

***Mübariz ABDULLAYEV***



# Nilayların ümid yeri...

## Dövlət ən çətin məqamlarda vətəndaşlarının yanındadır




**Tariximizin canlı yaddaş salnaməsi**

Sentyabrın 27-də - Anım Günündə Prezident İlham Əliyev Gəncə Memorial Kompleksinin açılışında iştirak edib. Əvvəlcə dövlətimizin başçısı memorial lövhənin qarşısına əklil qoyub. Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar Gəncə Memorial Kompleksində saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edib.

### Dövlət başçısının Nilayla səmimi görüşü

İndiyədək Prezident İlham Əliyev regionlara səfərləri çərçivəsində ictimaiyyət nümayəndələri ilə çoxsaylı görüşlər keçirib. Dövlətimizin başçısı ilə görüşə gələnlər arasında yaşlı insanlar da olub, cavanlar da, yeniyetmələr də, uşaqlar da. Bu dəfə isə ölkə rəhbəri Gəncə Memorial Kompleksində Nilay Əliyeva adlı kiçik yaşlı qız uşağı və onun babası Zahid Babazadə ilə görüşüb.

Prezidentin budəfəki görüşü tamam fərqlidir və həm də çox təsirlidir. Kimdir Nilay Əliyeva və dövlət başçısı nə üçün Gəncə səfərində, Anım günündə, Memorial Kompleksin açılışında bu kiçik qızla görüşməyi zəruri hesab edib?

Sualın cavabının tarixçəsi 5 il bundan əvvələ - 44 günlük müharibə günlərinə gedib çıxır. Vətən müharibəsi günləri yaddaşlarda yalnız Azərbaycan Ordusunun şücaətləri, qələbələri, şəhər və kəndlərimizin bir-birinin ardınca işğaldan azad edilməsi ilə qalmayıb. Həmin dönəm yaddaşımızda həm də Ermənistan silahlı qüvvələrinin bitib tükənməyən müharibə cinayətləri ilə qalıb. Bəli, müharibə günlərində düşmən döyüş meydanındakı uğursuzluqlarının qisasını keçmiş təmas xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizi, dinc insanları, mülki infrastrukturu qadağan olunmuş silahlardan atəşə tutmaqla almağa çalışırdı. O cümlədən 2020-ci il oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Azərbaycanın ikinci ən böyük şəhəri Gəncə Ermənistan silahlı qüvvələrinin "Toçka-U", "Smerç", "SCUD" və digər raket sistemlərindən atəşə məruz qalıb. Bu amansız hücumlar nəticəsində 6-sı uşaq olmaqla, 26 mülki şəxs həyatını itirib, 142 dinc sakin isə yaralanıb. Memorial məhz həmin zərbələrdən birinin endirildiyi ərazidə - yaşayış binalarının yerində inşa olunub və 4 hektar sahəni əhatə edir.

İndi aydın olur Nilay Əliyeva kimdir. O dövrdə Nilay da ata-anasının hər cür qayğısı ilə əhatə olunan xoşbəxt bir uşaq kimi böyüyürdü. Çoxlu oyuncaqları var idi, onları həmyaşıdları ilə bölüşərək evcik-evcik oynayır, sevimli kuklalarını bəzəyirdi...Qəfildən Gəncəyə raket atıldı, evlər dağıldı, insanlar göz qırpımındaca həyatla vidalaşdılar. Təsadüf nəticəsində sağ qalan Nilayın hər iki valideyini də həyatını itirənlər arasında idilər. Beləcə, qəfil raket atəşi çoxları kimi, Nilayın da xoşbəxtliyini yarımçıq kəsdi. Bu raket Gəncəyə niyə atılmışdı? Ermənilər onun ata-anasını niyə öldürdülər? Balaca Nilay üçün cavab tapa bilmədiyi suallar çoxdur...

Ata-anasını itirmək Nilayın həyatda aldığı ən böyük zərbədir. Aydındır ki, balaca uşağın bu kədərini heç nə ilə əvəz etmək mümkün deyil. O, xəyalında şən, qayğısız, valideynli günlərini canlandırır, bir uşaq nadincliyi ilə babasından, digər yaxınlarından onların qayıtmalarını istəyir, tez-tez yanaqları göz yaşlarına bələnir...

Nilayın bu istəyini yerinə yetirmək, əlbəttə ki, mümkünsüzdür. Beş il əvvəl baş verən dəhşətli hadisələrdən sonra o, babasının himayəsində böyüyür. Ancaq ölkə rəhbərinin Nilayla Memorial Kompleksdə baş tutan görüşü ölkəmizin mühüm bir gerçəkliyini ortaya qoydu. Bu, dövlətin, şəxsən Prezident İlham Əliyevin ən çətin məqamlarda vətəndaşların yanında olmaq gerçəkliyidir. Nilay bir nümunədir. Dövlətimiz, Prezidentimiz bütün nilayları heç vaxt taleyin ümidinə buraxmır, onlara sahib çıxır və arxa durur.

Nilay hələ kiçik bir uşaqdır, həyatı qabaqdadır. Onun dövlət başçısı ilə görüşünü əks etdirən fotodan aydın şəkildə görünür ki, Nilay Prezident İlham Əliyevin yanında olmaqdan çox məmnundur. Bu xoşbəxtlik bütün nilayların xoşbəxtliyidir. Onlar məhz dövlətimizin, prezidentimizin himayəsi sayəsində taleyin onlara yaşatdığı acıları unudacaqlar və həyatda öz yerlərni taparaq Azərbaycana layiqli övladlar olacaqlar.

### Sonsuz qürurumuz və acı kədərimiz

İkinci Qarabağ müharibəsi xalqımızın sonsuz qürurunu və acı kədərini özündə birləşdirir. Qürurluyuq! Ona görə ki, qisas qiyamətə qalmadı. Ordumuz cəmi 44 gün ərzində düşməni tam kapitulyasiyaya məruz qoydu, otuz il ərzində düşmən tapdağında qalmış torpaqlarımız geri qaytarıldı, ərazi bütövlüyümüz hərbi-siyasi yolla təmin olundu. Bu Zəfər son 200 illik tariximizin ən möhtəşəm qələbəsidir və hər zaman sonsuz qürur mənbəyimiz olaraq qalacaq.

Acı kədərimiz, qəlbimizi göynədən ağrı isə igid əsgər və zabitlərimizin, dinc insanlarımızın müharibə günlərində həyatlarını itirimələri ilə bağlıdır. Döyüşlərdə hərbiçilərin həlak olmaları müharibələrin yazılmamış qanunudur. Vətənə sonsuz məhəbbətlə bağlı olan Azərbaycan hərbiçiləri öz şücaətləri, misilsiz qəhrəmanlıqları ilə tarix yazdılar, Şuşa, Ağdam, Zəngilan, Hadrut, Füzuli fatehlərinə çevrildilər. Hər bir əsgər və zabitimiz müharibə günlərində heç nədən çəkinmədən "Təki Vətən yaşasın!" deyərək odun-alovun içinə atılır, ölümün gözünə dik baxırdılar.

Eyni zamanda, düşmən İkinci Qarabağ müharibəsində də mənfur simasını bir daha ortaya qoydu - döyüş meydanında əsgərləri, zabitləri kütləvi şəkildə fərarilik edən, silahlarını, postlarını qoyub qaçan Ermənistan ordusu keçmiş təmas xəttindən uzaqlarda yerləşən şəhər və kəndlərimizi, dinc sakinləri, mülki infrastrukturu qadağan olunmuş silahlardan atəşə tutmaqla dəhşətli müharibə cinayətləri törətdi. Həyatlarını itirən hərbiçilərimizin, mülki insanların xatirələri həmişə bizimlə olacaq, onların ölməz ruhları əbədi olaraq Vətən göylərində dolaşacaq. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə müharibənin başladığı 27 sentyabrın ölkəmizdə Anım günü kimi müəyyənləşdirilməsi, eləcə də Gəncədə memorial kompleksin yaradılması ölməz şəhidlərimizin xatirələrinə dövlət və cəmiyyət səviyyəsində göstərilən ehtiramın ifadəsidir.















### Günahsız insanların əziz xatirəsini əbədiləşdirən möhtəşəm abidə

Gəncədə Prezident İlham Əliyevin açılışına qatıldığı memorial kompleks yalnız bir abidə deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış çağırışdır. Ermənistanın dinc əhalimizə qarşı törətdiyi raket hücumları Cenevrə konvensiyaları ilə yanaşı, həm də bəşəriyyətin ən fundamental mənəvi dəyərlərini pozurdu. Azərbaycan isə müharibə dövründə beynəlxalq hüququn tələblərinə sadiq qalaraq yalnız legitim hərbi hədəfləri vurub, qisasını döyüş meydanında alıb.

Gəncə Memorial Kompleksi şanlı Zəfərimizə gedən yolu əks etdirir. Kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır. Bütövlükdə kompleks gələcək nəsillər üçün tariximizin canlı yaddaş salnaməsi olacaq bir məkandır.

Kompleksin təməli 2022-ci ilin yanvarında Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu ilin martında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qızları Leyla və Arzu Əliyeva ilə birlikdə layihə ilə tanış olub, avqust ayında isə Prezident İlham Əliyev və birinci xanım kompleksdə görülən işlərin gedişinə baxış keçiriblər.

Orijinal memarlıq həlli ilə seçilən abidə spiralvari forması ilə raketin yerdə buraxdığı iz - krateri simvolizə edir. Kompleksin açıq meydanında isə dağıdılmış binaların qalıqları xüsusi instalyasiya şəklində qorunub saxlanılıb.

Aypara formalı ikimərtəbəli binanın ümumi sahəsi 2400 kvadratmetrdir. Birinci mərtəbədə muzey ekspozisiyası, ikinci mərtəbədə isə seminar, təlim və müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş çoxfunksiyalı zal yerləşir.

Muzeydə "XX əsrin əvvəli", "Deportasiya və məcburi köçkünlük", "Soyqırımı və kütləvi qırğınlar", "Atəşkəs və Vətən müharibəsi dövrü", "İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru" və "İşıqlı gələcəyə doğru" mövzularına həsr olunmuş zallar fəaliyyət göstərir.

***MÜBARİZ***



## Bütün ailəmiz kədərlənir...

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Əməkdar artist Cabir İmanovun vəfatı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Nurlu, səmimi və qeyri-adi istedada malik insan - Cabir İmanovun vəfatı xəbəri məni sarsıtdı. Bütün ailəmiz kədərlənir, onun yaxınlarına və doğmalarına başsağlığı veririk.

Allah rəhmət eləsin".

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkını ziyarət ediblər







27 Sentyabr - Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Bakıda Zəfər parkını ziyarət ediblər.
Xatirə daşının önünə gül dəstələri düzülüb, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

# Bakının yeni iqtisadi və siyasi nizamda rolu təsdiqlənir və təqdir olunur

## ABŞ səfərinin mesajları - Qafqazdan dünyaya açılan körpü

Son 5 ildə qlobal mühitdə mühüm dəyişikliklər müşahidə olunmaqdadır. Yeni münasibətlər sisteminin aparıcı elementləri kimi əməkdaşlıq və ortaq dəyərlərin bölüşülməsi ön plana çıxır. Bu isə çoxtərəfli platformalarda sıx əlaqələrin formalaşması üçün yaradılan zəmini daha da möhkəmləndirir - nəticədə yeni nizamın əsas siyasi-iqtisadi, ticari sütunları kimi məhz yeni tranfsformasiyalar çıxış edir. Ən əsası bu amil, yeni beynəlxalq iqtisadi-siyasi əlaqələrin əməkdaşlıq üzərindən tənzimlənməsi hətta kəskin kataklizmlərin və toqquşmaların qarşısının alınmasında əsaslı rol oynayır.

Etiraf olunmalıdır ki, son 15 ildə Azərbaycan qlobal məkanda həm aparıcı regional lider, həm də qlobal logistik öncül kimi şöhrət qazanıb. Diqqət yetirsək, Bakının aparıcı rolu nəinki yerləşdiyi coğrafiyada, daha böyük geostrateji iqtisadi-siyasi platformalarda vurğulanır, təqdir edilir. Azərbaycanın qlobal proseslərdə rolunun artması, yeni perspektiv əməkdaşlıqların meydana çıxması isə bir daha onu göstərir ki, rəsmi Bakı aparıdığı siyasi-iqtisadi strategiyada uzaqgörənlik, operativlik, çevik dəyərləndirmə kimi mühüm ştrixləri ön plana çıxarır - bu, müasir çağırışlara, müasir standartlara söykənərək yürüdülən dövlət siyasətinin növbəti təsdiqi kimi ortaya çıxır.



Bu görüşlər yalnız adi diplomatik protokol yox, Azərbaycanın regiondakı nüfuzu və yeri, irəli sürdüyü sülh təşəbbüsləri, iqtisadi əhəmiyyəti və qlobal tərəfdaşlıq potensialının beynəlxalq səviyyədə təsdiqidir. Prezident İlham Əliyevin ABŞ-a səfəri zamanı keçirilən görüşlərin sayı və formatı Azərbaycanın beynəlxalq siyasətdəki yerini müəyyənləşdirən indikatordur - bu görüşlərin keçirilmə sinxronizasiyasına diqqət yetirsək, orada dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, böyük korporasiyaların menecerləri, siyasi və iqtisadi dairələrin tanınmış nümayəndələri yer alırdı. Bu, Azərbaycanın beynəlxalq siyasətdə necə etibarlı tərəfdaş kimi qəbul olunduğunu göstərən ən mühüm amillərdəndir.

### ABŞ səfəri: Azərbaycanın beynəlxalq mövqeyinin nümayişi və ifadəsi...

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a rəsmi səfəri bu tezisləri bir daha təsdiqlədi - son illərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində qazandığı uğurların məntiqi nəticəsi kimi xarakterizə olundu. Bu səfər diplomatik təmaslarla, qlobal dünyanın müəyyənləşdirdiyi mövzuların müzakirəsi ilə yanaşı, həm də Azərbaycanın region və dünya siyasətində artan rolunun bariz göstəricisi kimi tarixə düşdü. Səfərin ən mühüm xüsusiyyətlərindən biri keçirilən bütün görüşlərin qarşı tərəfin təşəbbüsü ilə baş tutması idi - bu, Azərbaycanın beynəlxalq nüfuzunun, siyasi çəkisinin və iqtisadi əhəmiyyətinin hansı səviyyədə olduğunu göstərən faktlardan biridir.

Paralel olaraq görüşlərin geniş spektri də diqqət çəkirdi: ABŞ-ın ən böyük investisiya şirkətlərinin rəhbərləri, Avropa dövlətlərinin liderləri, beynəlxalq təşkilatların rəhbərləri və tanınmış siyasət adamları Prezident İlham Əliyev ilə görüşmək üçün təşəbbüs göstərmişdilər. Bu o deməkdir ki, Azərbaycan artıq təkcə regional deyil, qlobal miqyasda da söz sahibi kimi qəbul olunur. Səfərin həm siyasi, həm iqtisadi, həm də təhlükəsizlik aspektlərində nəticələri Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət etdi.

### Görüşlərin mahiyyəti: Bakının etibarlı tərəfdaş imici, sülhpərvər mövqeyi...

Ən mühüm detallardan biri keçirilən görüşlərin doğurduğu mahiyyətdən irəli gəlir: bu görüşlər Azərbaycanın son illərdə beynəlxalq arenada apardığı siyasətin, iqtisadi təşəbbüslərinin və sülh gündəliyinin, regionlararası əməkdaşlığın inkişafına töhfəsinin təsdiqi və nəticəsi idi. Bu, həm də sübut etdi ki, Azərbaycanın regional münaqişələrin həllində təşəbbüskarlığı, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələr və beynəlxalq əməkdaşlığa açıq siyasəti böyük maraq doğurur. Fərqli qitələrin, kontingentlərin və siyasi-iqtisadi tərəflərin nümayəndələri ilə keçirilən görüşlər Azərbaycanın həm də bütövlükdə Avrasiya, Şərq - Qərb kontentləri arasında körpü rolunda çıxış edən, müxtəlif istiqamətlərdə əməkdaşlıq təklif edən dövlət kimi tanınması və təsdiqi idi. Bu isə Azərbaycanın beynəlxalq siyasətdə etibarlı tərəfdaş imicini möhkəmləndirir.

### ABŞ-Azərbaycan münasibətləri: əsas meyar qarşılıqlı hörmət və etimad prinsipləridir

Prezident İlham Əliyevin ABŞ səfəri olduqca vacib və qlobal əhəmiyyət daşıyan siyasi mesajlarla müşayiət olundu. Keçirilən görüşlərlərdə, yüksəksəviyyəli debatlarda, sessiyalarda Azərbaycanın qlobal təhlükəsizliyə töhfələri xüsusi vurğulandı - aparıcı ölkə liderləri hamılıqla Azərbaycan Prezidentinin təşəbbüsü ilə meydana çıxan sülh gündəliyinin, Zəngəzur dəhlizinin (TRİPP) üstünlüklərini vurğuladılar. Bu fakt isə özlüyündə Azərbaycanın regional və qlobal siyasətdəki nüfuzunu təsdiqləyən məna kəsb edir.

Xüsusilə Vaşinqton sazişinin iki ölkə arasında münasibətlərin normallaşmasına təsiri beynəlxalq dairələr tərəfindən yüksək qiymətləndirildi. Görüşlərdə bu müqavilənin regionun gələcəyi üçün əhəmiyyəti dəfələrlə vurğulandı. Bu, Azərbaycan diplomatiyasının uğuru olmaqla yanaşı, Prezident İlham Əliyevin siyasi uzaqgörənliyinin nəticəsidir. Dünyanın aparıcı güclərindən sayılan ABŞ-ın Prezidenti Donald Trampın Azərbaycan Prezidentinə xitabən "Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız" kimi yüksək fikir bildirməsi dövlət başçımızın yüksək liderlik potensialının ali tribunadan etirafı, bəyanı idi. İki lider arasında səmimi münasibətlər göstərdi ki, Bakı-Vaşinqton əməkdaşlığı qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanır.

### Liderlərarası görüşlər: Azərbaycanın qlobal tərəfdaşlığa töhfəsi...

Səfər zamanı Prezident İlham Əliyevin Finlandiya, Yunanıstan, Keniya, Portuqaliya, Bolqarıstan liderləri, həmçinin Avropa Şurasının baş katibi ilə görüşləri xüsusi əhəmiyyət daşıyırdı. Bu görüşlərdə diqqət mərkəzində əsasən sülh prosesi, regional əməkdaşlıq və enerji təhlükəsizliyi məsələləri dayanırdı.

Finlandiya və Yunanıstan liderləri Azərbaycanın Ermənistanla əldə etdiyi sülh sazişini "tarixi nailiyyət" kimi qiymətləndirdilər. Bu, Azərbaycanın təşəbbüskarlığının və qətiyyətinin beynəlxalq aləmdə necə dəyərləndirildiyini göstərdi. Portuqaliya və Bolqarıstan isə Azərbaycanın qaz ixracını Avropa üçün alternativ enerji mənbəyi kimi qəbul etdiklərini vurğuladılar. Keniya ilə görüşdə isə Azərbaycanın Afrika ilə iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün imkanlar müzakirə olundu. Bu görüşlərin hər biri Azərbaycanın müxtəlif regionlarda tərəfdaşlıq dairəsini genişləndirdiyini göstərdi.

Səfərin ən mühüm istiqamətlərindən biri isə aparıcı investisiya şirkətlərinin rəhbərləri ilə keçirilən görüşlər oldu. Bu görüşlərdə Azərbaycanın enerji layihələri, yaşıl enerji potensialı, nəqliyyat və logistika imkanları geniş müzakirə edildi. ABŞ şirkətlərinin nümayəndələri Azərbaycanın həm iqtisadi sabitliyini, həm də sərmayə üçün əlverişli şəraitini yüksək qiymətləndirdilər. Azərbaycan artıq təkcə neft və qaz ixracatçısı kimi deyil, həm də yaşıl enerji layihələrinin təşəbbüskarı kimi qəbul olunur. Xüsusilə külək və günəş enerjisi layihələri ABŞ investorlarının diqqətini cəlb edir. Bununla yanaşı, Azərbaycanın tranzit və logistika imkanları, Orta Dəhliz layihəsində oynadığı rol da biznes dairələrinin əsas maraq nöqtələrindən biri idi. Bu fakt isə ölkəmizin qlobal enerji təhlükəsizliyindəki rolunu müəyyənləşdirən element kimi ön plana çıxır.

### Sülh və təhlükəsizlik: Vaşinqton razılaşmaları təqdir olunur...

Diqqətçəkən əsas məqamlardan biri də səfər çərçivəsində keçirilən bütün görüşlərdə Azərbaycan və Ermənistan arasında Vaşinqtonda sülh sazişi layihəsinin paraflanması, razılaşmaların əldə olunmasının yüksək qiymətləndirilməsi oldu. Qlobal mühitdə bu sənəd regionda sabitlik və əməkdaşlığın təmin olunması baxımından mühüm tarixi addım kimi dəyərləndirilir. Təsadüfi deyil ki, Avropa ölkələrinin liderləri, beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanın sülh təşəbbüsünü "tarixi nailiyyət" adlandıraraq Prezident İlham Əliyevin siyasi iradəsini, qətiyyətini və Azərbaycanın regional lider kimi fəaliyyətini təqdir etdilər. Bu, Azərbaycanın qlobal təhlükəsizliyə verdiyi töhfənin qəbul edildiyini göstərən ən mühüm faktorlardan biridir.

Beləliklə, bu səfər, BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində baş tutan görüşlər Azərbaycanın beynəlxalq siyasətdə qazandığı uğurların növbəti təsdiqi oldu. Bu səfər bir daha göstərdi ki, Azərbaycan həm siyasi, həm iqtisadi, həm də təhlükəsizlik baxımından qlobal miqyasda mühüm rol oynayır. Azərbaycan artıq dünya siyasətində etibarlı tərəfdaş, sabitlik və inkişaf modeli kimi qəbul olunur. ABŞ səfəri də bu mövqenin daha da möhkəmləndirilməsi baxımından tarixi əhəmiyyət daşıyır.

*Pərviz SADAYOĞLU*

# Azərbaycan-BMT əlaqələri dinamik inkişafa malikdir

## Qurumla ölkəmiz arasında çoxşaxəli münasibətlər mövcuddur

Azərbaycanın yürütdüyü xarici siyasət kursu rəngarəngliyi və qətiyyəti ilə beynəlxalq aləmdə nümunəvi istiqamətlərdən biri kimi dəyərləndirilir. Ölkəmizin həm regional, həm də qlobal miqyasda qazandığı uğurlar təsadüfi deyil - məhz uzun illərin düşünülmüş, balanslaşdırılmış və milli maraqlara söykənən siyasətinin nəticəsidir. Azərbaycanın xarici siyasət fəlsəfəsi hər zaman qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq və beynəlxalq hüququn prinsiplərinə sadiqlik üzərində qurulub. Bu yanaşma təkcə ikitərəfli münasibətlərdə deyil, eyni zamanda çoxtərəfli diplomatik platformalarda da özünü qabarıq şəkildə göstərir.

Bu mənada, beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunun ən mühüm hədəflərindən biri kimi çıxış edir. Qlobal dünyada baş verən proseslərə milli maraqlar kontekstində təsir göstərmək, beynəlxalq arenada söz sahibi olmaq, ölkəmizin mövqelərini qorumaq və gücləndirmək məhz beynəlxalq aləmlə sıx işbirliyindən keçir. Azərbaycan daim beynəlxalq qurumlarla əməkdaşlıqda aktiv və prinsipial mövqe sərgiləyib. Bu fəallıq sayəsində ölkəmiz həm beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul olunub, həm də dünya birliyinin sülh və sabitlik istiqamətində atdığı addımlara real töhfələr verib.

Azərbaycanın beynəlxalq təşkilatlarda fəaliyyəti sadəcə formal iştirakla məhdudlaşmayıb. Əksinə, ölkəmiz təşəbbüskar mövqe nümayiş etdirərək qlobal təhlükəsizliyin qorunması, beynəlxalq terrorizmə qarşı mübarizə, miqrasiya problemlərinin həlli, humanitar əməkdaşlıq, iqlim dəyişmələri ilə mübarizə və digər sahələrdə əhəmiyyətli təşəbbüslərlə çıxış edib. Xüsusilə, Azərbaycanın ədalətli və balanslı mövqeyi beynəlxalq aləmdə yüksək rəğbətlə qarşılanır. Çünki Bakı heç bir zaman birtərəfli maraqlara xidmət edən siyasət yürütməyib, əksinə, ümumbəşəri dəyərlərin və beynəlxalq hüququn qorunmasına üstünlük verib.



### Nyu-Yorkda görüş...

Məhz bu fəallıq fonunda Azərbaycanın BMT ilə əlaqələrinin xüsusi vurğulanması zəruridir. Çünki BMT həm qlobal təhlükəsizliyin təminində, həm də sülh və inkişafın təşviqində bəşəriyyətin əsas platformasıdır. Azərbaycan isə bu platformada həm milli maraqlarını müdafiə edir, həm də beynəlxalq ictimaiyyətin ümumi məqsədlərinə töhfələr verir. Ölkəmizin BMT-dəki mövqeyi və fəaliyyəti həm dünyada Azərbaycanın tanıdılmasına, həm də beynəlxalq nüfuzunun güclənməsinə xidmət edir.

Qeyd edək ki, sentyabrın 25-də BMT-nin mənzil-qərargahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ilə görüşüb. Dövlətimizin başçısı BMT-nin fəxri qonaqlar kitabını imzalayıb. Baş katib Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Quterreş COP29-un Azərbaycanda uğurla keçirilməsi və beynəlxalq iqlim gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlər münasibətilə də dövlətimizin başçısını təbrik edib və bu tədbirin yüksək səviyyədə keçirilməsi ilə bağlı təşəkkürünü çatdırıb. O, BMT ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, hazırda ölkəmizin bu təşkilatın digər regionlarda fəaliyyətini dəstəklədiyinə görə minnətdarlığını bildirib, beynəlxalq böhranların aradan qaldırılmasında Azərbaycanla BMT arasında əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu qeyd edib. Azərbaycanın çoxtərəfli diplomatiyada fəal roluna toxunan BMT-nin Baş katibi Qoşulmama Hərəkatında ölkəmizin uğurlu sədrliyini də vurğulayıb, Azərbaycanın artıq donor ölkə olaraq BMT-nin müxtəlif institutlarının fəaliyyətinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirib.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət daşıdığını vurğulayıb. İki ölkə arasındakı münasibətlərin və regiondakı vəziyyətin tamamilə dəyişdiyini deyən dövlətimizin başçısı bildirib ki, Azərbaycan və Ermənistan müstəqilliklərini əldə edəndən bəri regionda sülh olmayıb. Hazırda isə bölgədə sülh mövcuddur. Hər iki ölkənin sülh şəraitində yaşamağa öyrəşdiklərini vurğulayan Prezident İlham Əliyev bunun həm Azərbaycan, həm də Ermənistan üçün mühüm və tarixi önəm kəsb etdiyini diqqətə çatdırıb.

Prezident Azərbaycanın donor kimi COVID-19 zamanı 80-dən çox ölkəyə yardım göstərdiyini qeyd edib və bundan sonra da regional, həmçinin beynəlxalq sülh gündəliyini dəstəkləyərək bu işə öz töhfəsini verəcəyini deyib.

2026-cı ildə ölkəmizdə BMT-nin Ümumdünya Şəhərsalma Forumu kimi böyük tədbirinin keçiriləcəyinə toxunan Prezident İlham Əliyev vurğulayıb ki, bu tədbir Azərbaycanın şəhərsalma, xüsusən də postmünaqişə şəraitində şəhərsalma sahəsində əldə etdiyi zəngin təcrübəsinin beynəlxalq ictimaiyyətlə bölüşməsi üçün yaxşı fürsət yaradır.

### Bakı qlobal təşəbbüslərlə yadda qaldı - vaksin əlçatanlığı ilə bağlı təkliflər...

Qeyd edildiyi kimi, qurumla ölkəmiz arasında olduqca mühüm əlaqələr mövcuddur - Azərbaycan daim BMT-nin humanitar təşəbbüslərində ön sıralarda çıxış edib, qlobal aləmdə sülhün və sabitliyin formalaşmasına töhfə verib. Azərbaycan 1992-ci ildə BMT-yə üzv olub və daim təşkilatın Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirib. Ölkəmiz BMT-nin əsas istiqamətlərindən olan Dayanıqlı İnkişaf Məqsədlərinin irəlilədilməsi, beynəlxalq sülh və təhlükəsizliyə töhfə verilməsi kimi vacib fəaliyyətlərdə müsbət mənada seçilib. Azərbaycan BMT strukturlarında və Baş Assambleya iclaslarında da aktiv iştirakı ilə seçilib. Ümummilli lider Heydər Əliyev ilk dəfə 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edib - daha sonra 1995-ci ilin oktyabr ayında BMT-nin 50 illiyinə həsr olunmuş xüsusi iclasda, 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında bu ali tribunadan Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm fəaliyyəti ilə yadda qalıb.

Prezident İlham Əliyev isə BMT Baş Assambleyasının ümumi müzakirələrində ümumilikdə 4 dəfə çıxış edib - 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri qismində, 2004, 2010 və 2017-ci illərdə isə Azərbaycan Respublikasının Prezidenti kimi bu tribunadan dünyanı narahat edən probllemlərin həlli istiqamətində dəyərli fikirlərini bölüşüb. Bununla yanaşı, Prezident İlham Əliyev 2020-ci ildə BMT Baş Assambleyasının 75-ci və 2021-ci ildə 76-cı sessiyasında onlayn formatda çıxış edib. Vətən müharibəsinin başlanmasından 3 gün öncə baş tutan 75-ci sessiyada Prezident İlham Əliyev dünya birliyini erməni işğalına qarşı susmamağa çağırıb - Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacibliyini ön plana çəkib. Dövlət başçısı onlayn formatda baş tutan həmin sessiyadakı çıxışında beynəlxalq sülh və təhlükəsizlik, pandemiyanın dünya dövlətlərinə təsirinin ölkələr arasında həmrəylik tələb etdiyini bildirərək bir neçə təklif irəli sürdü. Bu təkliflər pandemiyanın təsirlərinin azaldılması, xüsusilə vaksinin əlçatanlığı və ədalətli paylanılmasının təmin edilməsi, ən az inkişaf etmiş ölkələrin onu pulsuz əldə etməsi ilə bağlı mühüm tezisləri əhatə edirdi.

### Sülh prosesində yeni mərhələ - Azərbaycan BMT TŞ qətnamələrini icra etdi

Azərbaycan BMT-nin ali strukturlarında da uğurla təmsil olub. Belə ki, 2012-2013-cü illərdə ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzvlüyü çərçivəsində 2012-ci ilin may ayında Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasına sədrlik edib. 2013-cü ilin oktyabr ayında isə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrliyi çərçivəsində, BMT ilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında əməkdaşlığın təşviqinə həsr olunmuş yüksək səviyyəli iclas keçirilib - bu, Təhlükəsizlik Şurasının tarixində İƏT-ə həsr olunmuş ilk iclas kimi tarixə yazılıb.

Azərbaycan BMT Təhlükəsizlik Şurası ilə yanaşı İqtisadi və Sosial Şurada (ECOSOC) (2003-2005, 2017-2019-cu illər və üçüncü dəfə 2025-ci ilin əvvəlindən etibarən) üzv kimi fəaliyyət göstərib. Bundan başqa 2006-2009-cu illərdə BMT-nin İnsan Hüquqları Şurasının üzvü olub.

Bakı BMT-nin bir sıra mühüm tədbirlərinə də ev sahibliyi edib - 2016-cı ildə Sivilizasiyalar Alyansı üzrə Qlobal Forum və 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP29 Bakıda keçirilib.

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar 4 qətnamə qəbul edib. Bununla bağlı 7 dəfə sədrin bəyanatı səslənib, Baş Assambleya "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı iki qətnamə qəbul edib. 2020-ci ilə qədər bu qətnamələr icra olunmayıb - 2020-ci ildə isə bu sənəd Azərbaycanın özü tərəfindən icra edlib. Artıq sülh prosesi yeni bir mərhələyə qədəm qoyub - bu ilin avqustunda Vaşinqtonda baş tutan görüş, imzalanan Birgə Bəyannamə və sülh sazişinin paraflanması sülh təşəbbüslərinin reallığa çevrilməsi yönündə əsaslı addım kimi yadda qalıb. BMT Baş katibi isə 9 avqust 2025-ci il tarixli bəyanatında ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan Prezidenti ilə Ermənistan Baş naziri arasında imzalanmış çərçivə sazişini Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində mühüm bir mərhələ adlandırıb.

Nəticə etibarı ilə, BMT-Azərbaycan münasibətlərinin dinamik inkişafı göstərir ki, ölkəmiz beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi qlobal çağırışların həllinə, dayanıqlı inkişaf gündəliyinə və sülhün təmininə mühüm töhfələr verir. Bu münasibətlər təkcə Azərbaycanın diplomatik uğurlarının göstəricisi deyil, həm də ölkəmizin beynəlxalq nüfuzunun, multilateralizmə sadiqliyinin və qlobal tərəfdaşlıq imkanlarının bariz ifadəsidir. Qarşıdakı illərdə də BMT ilə əməkdaşlığın dərinləşməsi Azərbaycanın milli maraqlarının qorunmasına, regional və qlobal sabitliyə, eləcə də yeni inkişaf mərhələsinə mühüm dəstək olacaq.

*P.İSMAYILOV*

# Beyin mərkəzlərinin əməkdaşlığı: Türk dünyasının intellektual gücü birləşir

## Bakıda “Türk Dövlətləri Təşkilatı: qlobal nizamsızlıq dövründə regional aktor kimi” mövzusunda konfrans keçirilib

Müasir beynəlxalq münasibətlər sistemində dərin geosiyasi ziddiyyətlər, yeni güc mərkəzlərinin formalaşması və qlobal nizamsızlıq tendensiyaları fonunda regional əməkdaşlıq formatlarının rolu getdikcə daha da artır. Bu reallıqda Türk Dövlətləri Təşkilatı (TDT) yalnız tarixi, mədəni və mənəvi bağlara əsaslanan qurum kimi deyil, həm də siyasi, iqtisadi və təhlükəsizlik baxımından regional güc mərkəzinə çevrilən birlik kimi mahiyyət daşıdığını faktlarla sübuta yetirir. Təsadüfi deyil ki, qısa zaman kəsiyində təşkilatın institusional strukturlaşması, əlaqələrin sistemləşdirilməsi, iqtisadi əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi və beynəlxalq arenada vahid mövqenin nümayişi müşahidə olunur - bu isə, özlüyündə TDT-nin nüfuzunu xeyli artırır.

Azərbaycan dövləti isə bu prosesdə həm təşəbbüskar, həm də strateji körpü rolunu oynayır. Coğrafi mövqeyi, iqtisadi resursları, enerji və nəqliyyat dəhlizləri üzərindəki həlledici mövqeyi, eyni zamanda türk dünyasının siyasi inteqrasiyası istiqamətində atdığı ardıcıl addımlar, xüsusilə postmüharibə dövründə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya geocoğrafi məkanında yaratdığı yeni reallıqlar və təhlükəsizlik arxitekturası ölkəmizi TDT daxilində aparıcı aktor kimi ön plana çıxarır. Paralel olaraq Bakı bu gün təşkilatın yalnız fəal üzvü kimi deyil, həm də onun intellektual və ideya mərkəzi kimi mahiyyət kəsb edir. Bakıda “Türk Dövlətləri Təşkilatı: qlobal nizamsızlıq dövründə regional aktor kimi” mövzusunda keçirilən beynəlxalq konfrans türk dünyasının müasir çağırışlara cavab vermək gücünü nümayiş etdirməsi baxımından mühüm hadisədir.

### Bakı konfransı: təkliflər, müzakirələr...

Konfransda iştirakçı ölkələrin nümayəndələri çağdaş beynəlxalq münasibətlər sistemində TDT-nin rolu, qarşılaşdığı strateji çağırışlar və üzv dövlətlər üçün yaranan yeni əməkdaşlıq imkanlarını müzakirə ediblər. Konfrans çərçivəsində “Siyasi təhlükəsizliyin qeyri-müəyyənliyi dövründə TDT-nin qlobal sülh və sabitliyə töhfələri”, “İqtisadi qeyri-sabitlik dövründə TDT-nin dünya iqtisadiyyatına, ticarət və nəqliyyat əlaqələrinə töhfələri”, “Qlobal qeyri-müəyyənlik dövründə TDT-nin mədəniyyət, elm və parlamentarizm üzrə siyasəti” mövzusunda panel müzakirələr keçirilib. Müzakirələrdə çıxış edən qonaqlar TDT-nin inkişafının mədəni və sivilizasiyalararası əməkdaşlıqla yanaşı, beynəlxalq arenada Türk dünyasının roluna dair ortaq baxış formalaşdırdığını bildiriblər. Azərbaycan ilə Ermənistan arasında ABŞ-da Birgə Bəyannamənin imzalanmasını tarixi hadisə adlandıran çıxışçılar bu nailiyyəti bütövlükdə Türk dünyasının ortaq qələbəsi adlandırıblar. Qeyd edilib ki, enerji müstəqilliyi dövlətlərin milli təhlükəsizliyi və davamlı inkişafı üçün strateji əhəmiyyət kəsb edir. Vurğulanıb ki, kataklizmlərin davam etdiyi bir şəraitdə Türk Dövlətləri Təşkilatı xüsusi rol daşıyır - bu təşkilat Mərkəzi Asiyanı, Qafqazı və Anadolunu birləşdirən strateji körpü rolunda çıxış edir. TDT-nin gücü bəyanatlardan konkret addımlara keçid imkanında, birgə risk qiymətləndirilməsində, pilot layihələrin reallaşdırılmasında və sınaq mexanizmlərinin tətbiqindədir.

Tədbirdə çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Türk dövlətləri arasında əməkdaşlığı zəruri edən əsas amillərdən biri dünyada artmaqda olan təhlükələr və risklərdir. Bu təhlükələrə qarşı təkbaşına mübarizə aparmaq, demək olar mümkün deyil. Məhz buna görə də dövlətlər arasında ittifaqların və əməkdaşlıq formatlarının artdığını müşahidə edirik. F. Şəfiyev deyib ki, Azərbaycanın hazırda 4 dövlətlə müttəfiqlik müqaviləsi və ya bəyannaməsi var, onlardan 3-ü türk dövlətidir. Aramızdakı əməkdaşlığın gücləndirilməsi qarşılaşdığımız risk və təhlükələrə qarşı daha dayanıqlı mövqe sərgiləməyimizə imkan yaradır. Qeyd olunub ki, TDT-nin builki Zirvə görüşü Azərbaycanda keçiriləcək: “Bu gün əminliklə deyə bilərik ki, TDT həqiqi mənada regionda sülh və əməkdaşlığa tam xidmət edir. Çünki regiondakı digər təşkilatlardan fərqli olaraq, TDT daxilində əməkdaşlıq bərabərhüquqluluq prinsipinə əsaslanır. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatı ilə bağlı müvafiq tezisləri var. Onun ifadəsi odur ki, bizim türk ailəsi çərçivəsində siyasətimiz fəal olmalıdır. Bundan başqa, biz bu imkandan istifadə edərək müzakirələr aparmalıyıq”.





### Qlobal nizamsızlıq fonunda TDT-nin rolu

Etiraf olunmalıdır ki, son illər beynəlxalq münasibətlər sistemi qeyri-sabitlik, qarşıdurmalar və dərin geosiyasi böhranlarla müşahidə olunur. Qlobal güc mərkəzləri arasında artan rəqabət, regional münaqişələrin dərinləşməsi, enerji və ərzaq böhranı dünya siyasətinə “nizamsızlıq dövrü” damğasını vurub. Belə bir mühitdə dövlətlərin milli maraqlarını qorumaq və daha çevik əməkdaşlıq formatları yaratmaq zərurəti meydana çıxıb. Türk Dövlətləri Təşkilatı da məhz bu çağırışların fonunda regional aktor kimi öz mövqeyini gücləndirməkdədir. TDT-nin üstünlüyü yalnız ortaq tarixi və mədəni bağlara deyil, həm də praktik əməkdaşlıq imkanlarına əsaslanır. Bu təşkilat üzv ölkələrin birgə qərarvermə mexanizmlərini gücləndirməklə yanaşı, həm enerji təhlükəsizliyi, həm də nəqliyyat-logistika sahələrində strateji rol oynayır. Nizamsızlıq şəraitində belə birliklər ölkələrə həm siyasi dayanıqlıq, həm də beynəlxalq münasibətlərdə daha balanslı mövqe qazandırır. TDT-nin qlobal güclər qarşısında vahid mövqedən çıxış etməsi, beynəlxalq hüququn müdafiəsi və regional inteqrasiyanın dərinləşdirilməsi gələcəkdə təşkilatın rolunu daha da artıracaq.

### Azərbaycanın liderliyi və fəallığı sayəsində...

Tədbirdə vurğulandığı kimi, Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı rolu xüsusi olaraq fərqlənir. Ölkəmiz yalnız təşkilatın qurucularından biri deyil, həm də onun inkişafına yönəlik əsas təşəbbüslərin müəllifidir. Azərbaycanın coğrafi mövqeyi - Xəzərdən Qafqaza, buradan isə Avropaya açılan strateji körpü olması - TDT-nin siyasi və iqtisadi əlaqələrində əsas dayaqlardan birinə çevrilib. Bakı həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə türk dünyası ölkələrinin Avrasiya məkanına inteqrasiyasını təmin edir.

Enerji sahəsində Azərbaycanın təşəbbüsləri xüsusi əhəmiyyət daşıyır. TANAP və TAP kimi layihələr türk dünyasını Avropa ilə birləşdirən strateji enerji xəritəsinin formalaşmasına xidmət edir. Bundan başqa, Azərbaycanın balanslı və müstəqil xarici siyasəti TDT daxilində sabitləşdirici faktor kimi çıxış edir. Prezident İlham Əliyevin təşkilatın inkişafına dair irəli sürdüyü təkliflər bu gün TDT-nin gələcək yol xəritəsinin əsas istiqamətlərini müəyyənləşdirir. Azərbaycanın liderliyi və fəallığı olmadan təşkilatın indiki səviyyəyə çatması çətin olardı.

### TDT-nin inkişaf xətti...

Sirr deyil ki, müasir dövrdə dövlətlərarası əməkdaşlıq yalnız siyasi və iqtisadi mexanizmlərlə məhdudlaşmır. Qlobal çağırışlara çevik cavab vermək, yeni strategiyalar hazırlamaq üçün analitik düşüncə və elmi əsaslandırılmış yanaşmalar zəruridir. Bu baxımdan beyin mərkəzlərinin rolu əvəzsizdir. Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyət göstərən və əməkdaşlıq edən beyin mərkəzləri ölkələr arasında inteqrasiyanı dərinləşdirən intellektual platforma rolunu oynayır.

Bakıda keçirilən konfrans da bu baxımdan mühüm əhəmiyyət daşıyır. Burada səslənən təhlillər, təkliflər və yeni ideyalar türk dünyasının gələcək inkişaf strategiyasının hazırlanmasında əsas baza rolunu oynayır. Analitik mərkəzlərin qarşılıqlı əməkdaşlığı yalnız nəzəri çərçivədə deyil, praktiki siyasət proseslərinə də təsir göstərir. Beləliklə, beyin mərkəzləri türk dövlətlərinin həm milli maraqlarını müdafiə etməyə, həm də qlobal səhnədə vahid mövqeyini gücləndirməyə xidmət edir. Çünki Türk Dövlətləri Təşkilatının gələcəyi böyük imkanlar və perspektivlərlə bağlıdır:

- İqtisadi əməkdaşlığın genişləndirilməsi;

- Vahid nəqliyyat-logistika şəbəkəsinin formalaşdırılması;

- Enerji resurslarının birgə istifadəsi inteqrasiyanın əsas sütunlarını təşkil edir. Bununla yanaşı, mədəni-humanitar sahədə də əməkdaşlığın gücləndirilməsi türk xalqları arasında birliyi daha da möhkəmləndirir. Gələcəkdə vahid iqtisadi məkanın yaradılması, gömrük və ticarət mexanizmlərinin sadələşdirilməsi təşkilatın effektivliyini artıracaq. Təhlükəsizlik sahəsində əməkdaşlıq, müdafiə sənayesində qarşılıqlı layihələrin həyata keçirilməsi də TDT-nin qlobal aktor kimi rolunu möhkəmləndirə bilər. Burada Azərbaycanın təşəbbüsləri, Türkiyənin hərbi-siyasi gücü, Orta Asiya dövlətlərinin iqtisadi potensialı və strateji mövqeyi birləşərək güclü inteqrasiya modelini formalaşdırır.

Türk dünyası həm geosiyasi, həm də geoiqtisadi baxımdan böyük imkanlara malikdir. Əgər bu imkanlar düzgün istiqamətə yönləndirilərsə, TDT yaxın gələcəkdə yalnız regional deyil, həm də qlobal miqyasda nüfuzlu güc mərkəzinə çevrilməyi hədəfinə çevirir. Bu isə həm təşkilat üzvlərinin milli maraqlarına xidmət edəcək, həm də beynəlxalq münasibətlərdə yeni balans yaradacaq.

*Pərviz SADAYOĞLU*

# İnnovasiya, investisiya və texnologiyalar üçün unikal platforma

## “INMerge İnnovasiya Sammiti” rəqəmsal ekosistemin inkişafında yeni imkanlar açır

Sentyabrın 29-da regionun nüfuzlu “INMerge İnnovasiya Sammiti-2025” işə başlayıb. “PAŞA Holdinq”in təşkilatçılığı ilə keçirilən layihənin əsas məqsədi texnoloji yeniliklər, startaplar və innovativ həlləri təşviq etmək, eləcə də müxtəlif ölkələri təmsil edən iş adamları və investorların şəbəkələşməsinə dəstək olmaqdır. Fintex, telekommunikasiya, elektron ticarət kimi sahələrdən olan innovatorlar, investorlar və sahənin nüfuzlu liderlərinin təmsil olunduğu sammitdə 30-dan çox ölkədən 1000-dən artıq biznes icması iştirak edir. İki gün davam edəcək sammitdə iştirakçılara yüksəksəviyyəli çıxışlar, panel müzakirələri, startap müsabiqələri və şəbəkələşmə imkanları təqdim olunacaq. Builki sammitə “IBM”, “Microsoft”, “Netflix”, “Pixar” kimi bir çox qlobal və yerli şirkətlərin rəhbər və nümayəndələri qatılıblar.

### Startaplar və investorları bir araya gətirən platforma

Azərbaycan innovasiyalar və rəqəmsal layihələrin həyata keçirilməsində qabaqcıl ölkələrlə sıx əməkdaşlıq edir, ən müasir elektron xidmət və bacarıqları mənimsəmək üçün birgə addımlar atır, eyni zamanda onları ölkəmizə gətirərək rəqəmsal ekosistemin inkişafına töhfə verməyə səfərbər edir. “INMerge İnnovasiya Sammiti” bu baxımdan rəqəmsal tərəfdaşlığın mühüm platforması kimi innovasiya ekosisteminin inkişafına töhfə verəcək tədbir hesab edilə bilər. Tədbir ölkədə fəaliyyət göstərən startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün yeni fürsətlər yaratmaq, rəqəmsal şirkətlər arasında fikir və təcrübə mübadiləsini inkişaf etdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir. Sammitdə fintex, telekommunikasiya, e-ticarət, süni intellekt, marketinq, rəqəmsal bacarıqlar üzrə qlobal tərəfdaşların qoşulması, o cümlədən “Youtube”, “Amazon”, “Waze” kimi nəhəng şirkətlərin nümayəndələrinin iştirak etməsi rəqəmsal sektorda yenilikçi ideyaların ərsəyə gəlməsində də təşviqedici rol oynayacaq.




### “INMerge” Mərkəzi Avrasiyanın əsas innovasiya hadisəsidir

“PAŞA Holdinq” MMC-nin baş direktoru Cəlal Qasımov bildirib ki, beş il əvvəl korporativ görüş kimi başlayan tədbir bu gün innovasiyalar, investisiyalar və texnologiyalar üçün aparıcı regional platformaya çevrilib. Builki sammit yeni miqyas və ambisiyalar baxımından daha bir irəliləyiş deməkdir, 5000-dən çox iştirakçı ideya bölüşmək və birlikdə gələcəyi qurmaq üçün toplaşıb.

C.Qasımov qeyd edib ki, “INMerge” Mərkəzi Avrasiyanın əsas innovasiya hadisəsidir və Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan, Özbəkistan və regionun digər ölkələrindən hökumət nümayəndələrini, innovatorları, investorları, korporasiyaları, startapları və ekosistem yaradıcılarını birləşdirir. Azərbaycan bu qabaqcıl biznes ideyası konsepti ilə kapital və tərəfdaşları bir arada toplayır və inkişafın sürətləndirilməsi yollarına açıq dialoq mühiti yaradır. Bunun nəticəsidir ki, sammitdə kapitalın dəstəkləyə biləcək ideyalara və irəliləyişlərə xüsusi diqqət yetirən biznes icması vahid bir iqtisasi zəka zəncirində birləşir. Onlar yeni investisiyalar və innovasiyalar sahəsində partnyor qazanırlar, birlikdə regionun gələcəyinin ikiqat hərəkətverici qüvvəsinə çevrilmək üçün yol xəritələri müəyyənləşdirirlər.

### Azərbaycan süni zəka baxışlarını qəbul edən ölkələr sırasına qoşulub

“INMerge İnnovasiya Sammiti”nin əsas çağırışlarından biri süni intellekt üzrə imkanları artırmaq, tədris, təhsil və elmdə müasir vəhdəti formalaşdırmaqdır.

Tədbirdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, həmin prioritetlər üzrə yetərli infrastruktur qurulub və ali təhsil sistemində süni zəkanının təşviqi üzrə strateji baxışlar öz müsbət bəhrəsini verməkdədir. Həmin infrastruktur üzərində süni intellekt və bilik əsaslı sistemlər qurulur və dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Süni İntellekt Akademiyası fəaliyyətə başlayıb və hazırda yüzlərlə peşəkar mütəxəssis hazırlanır və onlar yaxın illərdə əmək bazarına daxil olacaq.

Qeyd olunub ki, ölkəmizdə çox güclü rəqəmsal infrastruktur qurulub, internetin orta sürəti dəfələrlə artıb. ABŞ ilə əməkdaşlıq çərçivəsində yaxın aylarda “Microsoft Business Platform” istifadəyə veriləcək.Bu platforma dövlət xidmətlərinin vahid pəncərə prinsipi ilə əlçatanlığını təmin edəcək.

Sammitdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin iqtisadi inkişafında qeyri-neft amilinin aparıcı rol oynadığını vurğulayıb. Bildirib ki, neftdənkənar sektordakı artın dinamizm ixracı da stimullaşdırır və bunun nəticəsində 6 ildə qeyri-neft ixracı artıb. Eyni zamanda, iqtisadiyyata daxili və xarici mənbələr hesabına sərmayə qoyuluşları artıb. Bunun əsas səbəbi isə investisiya iqliminin və etibarlılığın yüksəlməsidir. Sərmayələr son illərdə şaxələnməklə yüksək texnologiyalar sektorlarına yönəldilir ki, bunun nəticəsində Azərbaycanda süni zəka seqmenti formalaşır və ölkəmiz milli süni zəka baxışlarını qəbul edən ölkələr sırasına qoşulub.

### “Startap Azərbaycan” platforması sərmayələr cəlb edir

“INMerge Sammiti”ndə robot texnologiyaları, startap quruculuğu sahəsində əldə edilən müsbət nəticələrə də diqqət çəkilib. Vurğulanıb ki, süni innovasiya modelinin mühüm atributlarından biri olan startaplar biznes ideyalarının mükəmməl aləti kimi özünü doğrultmaqdadır. Bunun nəticəsidir ki, builki tədbirə 100-dən çox startap qoşulub ki, onların 70-dən çoxu dünyanın müxtəlif ölkələrindən gəlib. Bu isə regionun ən yaxşı texnoloji istedadlarının unikal bir toplantıda birləşməsi deməkdir.

Bir neçə ildir ki, fəaliyyət göstərən “Startap Azərbaycan” platforması startaplar, investorlar, maliyyə fondları, yeni rəqəmsal alətlərə dəstək verməklə gənc biznes komandasının təşviqinə və böyüməsinə səbəb olmaqdadır. Bunun nəticəsidir ki, süni intellektin atributlarından biri olan bu layihələrə qoşulan gənc istedadların sayı durmadan artır. 2022-2024-cü illər ərzində yerli startaplarımız müxtəlif qlobal investor və təşkilatlardan 2,4 milyon avrodan çox investisiya cəlb ediblər. Bu, ölkəmizin innovasiya potensialına olan inamın göstəricisidir, həm də həyata keçirdiyimiz təşəbbüslərin real nəticəsi kimi qəbul edilə bilər.

Startaplarımız elektron ticarət, səhiyyə və təhsil texnologiyaları, aqrotexnologiya, maliyyə texnologiyaları, ekoloji təmiz texnologiyalar, əşyaların interneti və oyun sənayesi kimi çoxşaxəli sahələri əhatə edib. Bununla yanaşı, Azərbaycanda vençur kapital mexanizmlərinin inkişafı da mühüm mərhələyə qədəm qoyub. Son illərdə yaradılmış müxtəlif fondlar vasitəsilə ümumilikdə 15 milyon dollardan çox kapital formalaşdırılıb və həmin fondlar 2,2 milyon dollardan artıq sərmayəni regionlarda fəaliyyət göstərən startaplara yönəldiblər.

Sammitdə yeni biznes ideyaları və zəka quruculuğunda daha da inkişaf meyarları qazanmaq üçün biznes mühiti ilə bağlı qanunvericilikdə dəyişikliklər edilməsinin vacibliyinə də diqqət çəkilib. Yeni ekosistemdəki yeniliklərin təşviqi baxımından iştirakçılara öz təklif və fikirlərini təqdim etmək barədə çağırış edilib. Həmin təkliflərin nəzərə alınması isə institisional arxitekturanı möhkəmləndirməklə, innovasiya ekosistemində əməkdaşlığı daha da gücləndirməyə imkan verəcək.

*E.CƏFƏRLİ*

# Biznesə sərmayələr üçün yeni mənbə

## Ölkəmizdə regional statuslu vençur şirkəti təsis edilib

Bakıda keçirilən "INMerge" İnnovasiya Sammiti çərçivəsində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə "White Hill Capital" vençur fondu arasında yeni vençur maliyyələşmə şirkətinin təsis edilməsinə dair Təsis Müqaviləsinin imzalanma mərasimi keçirilib. Mərasimdə çıxış edən İRİA-nın sədri Fərid Osmanov bildirib ki, Azərbaycan ekosisteminə yeni xarici vençur fondunun daxil olması yerli startapların qlobal mühitə inteqrasiyasını sürətləndirəcək. Azərbaycan ekosistemi bu fondun resurslarından yaxın perspektivdə mümkün qədər faydalana biləcək.

"White Hill Capital" vençur fondunun idarəedici ortağı Aslan Sultanov isə bildirib ki, bu şirkətin Azərbaycan bazarına daxil olması fondun investisiya portfelinin perspektivli yatırımlarla genişlənməsinə, digər tərəfdən isə Azərbaycanda vençur maliyyələşməsi mühitinin diversifikasiyasına xidmət edəcək. 2021-ci ildə Qazaxıstanda təsis edilmiş regional vençur fondu olan "White Hill Capital" yeni müqavilə çərçivəsində Azərbaycanda vençur kapital mühitinin genişlənməsi və yerli startapların beynəlxalq bazarlara inteqrasiyasının sürətlənməsinə töhfə verəcək.

### Dünyanın nəhəng rəqəmsal şirkətləri vençur kapitalı ilə yaradılıb

Vençur fondu yeni və böyüməkdə olan şirkətlərə sərmayə yatıraraq onların inkişafına dəstək olan maliyyə qurumudur. Bu fondlar əsasən texnologiya, startaplar və yenilikçi bizneslər üçün əhəmiyyətli hesab edilir. Vençur fondları əsasən, öz sərmayələrini kiçik və orta miqyaslı şirkətlərə yönəldir. Çünki həmin şirkətlər ənənəvi bank kreditləri ilə maliyyələşdirilməkdə çətinlik çəkir, biznes modellərinə keçiddə risklərlə üzləşir. Vençur fondları bu riskləri öz üzərinə götürərək kiçik şirkətləri kapitalla təmin edir və maliyyə portfelində müəyyən paya sahib olmaqla dayanıqlılığını möhkəmləndirir.

ABŞ-da bu institutlar milli inkişafa və dayanıqlı iş yerlərinin təmin edilməsində də mühüm rol oynayır. Vençur şirkətləri tərəfindən ABŞ iqtisadiyyatında 15 milyon nəfərlik iş yeri yaradılıb, 4 trilyon dollar həcmində maliyyə vəsaiti formalaşıb. Eləcə də Asiya və Avropa regionlarında da vençur şirkətlərinin kapitalı əsasında iş yerlərinin açılması və gəlirlərin artması dinamikası yüksəlib. Vençur kapitalı robot texnologiyalarının, nou-hauların, yüksək inkişafa əsaslanan sənaye sahələrinin, İT və bulud texnologiyalarının və digər rəqəmsal təsisatların inkişafı üçün başlıca alət rolunu oynayır. Dünyanın ən böyük şirkətlərinin bir çoxu ("Alibaba", "Alphabet", "Apple", "Amazon", "Facebook", "Microsoft", "Tencent" və "Tesla" və s.) məhz vençur kapitalı maliyyə dəstəyi və məsləhətləri ilə fəaliyyətə başlayıb.






Bu baxımdan Azərbaycan bazarı üçün də vençur kapitalı xüsusi əhəmiyyət daşıyır və vençur ideyası 2022-ci ildə ilk kapital fondunun yaradılması ilə nəticələnib. "PAŞA Holdinq" Şirkətlər Qrupu və fərdi investorların iştirakı ilə "Caucasus Ventures" adlı vençur fondu təsis edilib. "Caucasus Ventures" ötən illər ərzində Azərbaycanla yanaşı, Gürcüstan, Türkiyə, Orta Asiya və Şərqi Avropa ölkələrinin startap sektoruna sərmayə yatırıb ki, bu da regional innovasiya mövqeyini təsdiqləyib.

Bunun ardınca vençur bazarı böyüməyə başlayıb və hazırda bu sektorda kifayət qədər potensial şirkətlər mövcuddur.

### Vençur fondları vasitəsilə 15 milyon dollardan çox kapital formalaşıb

Onların daha da böyüməsi Azərbaycanın innovasiya ekosisteminin inkişafı üçün əlverişli şəraitin təmin edilməsində, investisiya mədəniyyətinin formalaşmasında mühüm rol oynayıb, yerli və xarici startapların, investorların diqqətini cəlb edib. Ölkəmizdə indiyə qədər 30-dan çox startap vençur fondları vasitəsilə investisiya əldə edib və bunun genişləndirilməsi istiqamətində qurumlarla iş aparılır.

Azərbaycanda son illərdə yaradılmış müxtəlif vençur fondları vasitəsilə ümumilikdə 15 milyon dollardan çox kapital formalaşdırılıb, bu fondlar artıq 2,2 milyon dollardan çox sərmayəni regionda fəaliyyət göstərən startaplara yönəldib. Dövlət və özəl sektorun vençur kapitalına marağının artması sayəsində ölkəmizdə texnologiya, rəqəmsallaşma və innovasiyaların inkişafına yeni mənbə açılıb. Vençur fondları, həmçinin ölkə iqtisadiyyatında yeni iş imkanlarının yaradılması, texnoloji innovasiyaların ixracı və beynəlxalq bazarlarda milli brendləşmədə vacib rol oynamaqdadır.

*ELBRUS*

# Manatın sabit məzənnəsi investorların etimadını gücləndirir

**Avropa Bankının qənaətinə görə, üzən faiz dəhlizi əsasında emissiyanın manatda ifadə olunması milli valyutanın etibarlılığını artırır**

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycan manatının üzən faiz dəhlizi əsasında istiqraz bazarına təsirlərinə dair ehtimallarını açıqlayıb. AYİB hesab edir ki, istiqraz emissiyası ölkənin maliyyə sistemində innovativ addım hesab edilə bilər. Azərbaycan maliyyə bazarlarında uzun müddət dövlət istiqrazları üstünlük təşkil edib, korporativ istiqrazların payı isə kifayət qədər məhdud qalıb. AYİB-in 50 milyon manat həcmində üzən faizli istiqraz emissiyası bazarda yeni maliyyə aləti kimi çıxış edir. Ənənəvi sabit faizli istiqrazlardan fərqli olaraq, bu emissiya Azərbaycan Banklararası Faiz Dərəcəsinə (AZIR) əsaslanır. Bu xüsusiyyət investor risklərinin azaldılmasına xidmət edir, çünki faizlər bazar mexanizmləri ilə müəyyənləşir və iqtisadi mühitdəki dəyişikliklərə uyğunlaşır. Nəticədə, maliyyə bazarında daha çevik qiymətləndirmə prosesi təmin olunur. Faiz dərəcələrinin banklararası bazara bağlı olması, onların aktiv-passiv balanslaşdırılmasında yeni imkanlar yaradır. Depozitlər üzrə öhdəlikləri AZIR dəyişkənliyinə uyğun olan banklar bu istiqrazlardan balansın tarazlaşdırılması üçün istifadə edə bilərlər.

### Maliyyə alətlərinin çoxalması liberallaşma prosesini sürətləndirə bilər

İstiqrazların Bakı Fond Birjasında (BFB) listinq olunması həm yerli, həm də xarici investorlar üçün etimad mühiti yaradır. Beynəlxalq maliyyə təşkilatının iştirakı kapital bazarında etalon nümunə rolunu oynaya bilər. Bu, gələcəkdə digər beynəlxalq və yerli emitentlərin də borclanma məqsədilə BFB-yə müraciət etməsini asanlaşdıra bilər. Avropa Bankının ekspertlərinin qənaətinə görə, emissiyanın manatda ifadə olunması milli valyutanın etibarlılığını artırır. Bu, manatın yalnız mübadilə vasitəsi deyil, həm də investisiya valyutası kimi qəbul edilməsinə şərait yaradır. Uzunmüddətli perspektivdə manatla ifadə olunan istiqrazların çoxalması milli valyutanın mövqeyini gücləndirəcək və ölkədə dollarizasiya səviyyəsinin aşağı enməsini stimullaşdıra bilər. Mövcud emissiya çərçivəsi həm dövlət, həm də özəl sektor üçün nümunəvi presedent rolunu oynayır. Dövlət qurumları və şirkətlər gələcəkdə AZIR əsasında üzən faizli istiqrazlar buraxa bilərlər. Bu isə daxili borc bazarının rəqabətliliyini artıracaq, kapitalın qiymətini bazar qaydaları ilə müəyyənləşdirəcək və iqtisadiyyatın maliyyə dayanıqlığını gücləndirəcək. Manatla bağlı risklərin daha idarəolunan olduğu qənaəti əlavə kapital axınına səbəb olacaq. Bu, ölkədə maliyyə sektorunun dərinləşməsinə və uzunmüddətli kapitalın cəlb olunmasına xidmət edəcək.

Avropa Bankının məzənnə rejimi ilə bağlı digər gözləntisi də qənaətbəxşdir. Bankın qənaətinə görə, üzən faizli istiqrazlar ilə üzən məzənnə rejimi qarşıdırılır. Halbuki bunlar fərqli kateqoriyalara aiddir. Üzən faiz istiqrazların gəlirliyinin bazar faiz dərəcələrinə bağlı olması deməkdir. Məzənnə rejimi isə milli valyutanın digər valyutalara qarşı dəyərinin müəyyənləşmə üsulunu ifadə edir. Azərbaycan maliyyə sistemində hazırda sabit məzənnə rejimi fəaliyyət göstərir. Yəni, manatın məzənnəsinin sabitliyi üçün Mərkəzi Bankın müdaxilə imkanları saxlanılır. AYİB-in qənaətinə görə, bu emissiya isə yalnız faiz siyasətinə aid addımdır və məzənnə rejimi ilə birbaşa bağlı deyil. Bununla belə, uzunmüddətli perspektivdə belə maliyyə alətlərinin çoxalması bazarda liberallaşma prosesini sürətləndirə bilər. İnvestorların bazar mexanizmlərinə etibarının artması, həm faiz, həm də valyuta siyasətində çevikliyin yüksəlməsinə dolayı təsir göstərə bilər.




### "Economist Intelligence Unit"un manatla bağlı ehtimalları da müsbətdir

Azərbaycanda milli valyuta olan manatın məzənnəsi ilə bağlı "The Economist Group"un araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit"un (EIU) ehtimalları da müsbətdir. Qurumun proqnozlarına görə, 2024-2029-cu illər manatın ABŞ dolları qarşısında kursu sabit qalacaq, avro isə manat qarşısında nisbətən ucuzlaşacaq. Dollar/AZN məzənnəsi 2025-2029-cu illər ərzində 1,70 səviyyəsində stabilliyini qoruyacaq. Bu, Mərkəzi Bankın manatın sabitliyini təmin etmək siyasəti ilə uzlaşır və ölkədə maliyyə sabitliyi üçün mühüm göstərici hesab olunur. Analitiklər bildirirlər ki, manatın dollara nisbətdə sabit qalması həm inflyasiya risklərinin idarə edilməsinə, həm də ölkəyə sərmayələrin cəlb olunmasına mühüm təsir göstərəcək.

Avro qarşısında isə manatın dəyərində nisbətən eniş müşahidə olunacaq. Proqnozlara görə, 2025-ci ildə avro/AZN məzənnəsi 1,77 manat səviyyəsində olacaq. 2026-cı ildə bu göstərici 1,75 manata enəcək, 2027-ci ildə isə 1,73 manata qədər aşağı düşəcək. 2028-2029-cu illərdə Avro/AZN məzənnəsi eyni səviyyədə qalacaq və beləliklə, avronun manat qarşısında tədrici ucuzlaşması müşahidə olunacaq.

Analitiklər vurğulayırlar ki, manatın sabitliyinin qorunması yalnız Mərkəzi Bankın siyasətindən asılı deyil. Azərbaycanın makroiqtisadi göstəriciləri, xarici ticarət balansı, valyuta ehtiyatlarının səviyyəsi və maliyyə bazarlarının möhkəmliyi də valyutanın sabitliyində mühüm rol oynayır. EIU hesab edir ki, ölkənin dollar ehtiyatlarının kifayət qədər olması, habelə xarici valyuta gəlirlərinin stabilliyi manatın gələcəkdə də sabit qalmasına şərait yaradacaq.

### Manatın sabit qalması inflyasiya göstəricilərinə də müsbət təsir edəcək

Mütəxəssislər qeyd edirlər ki, manatın dollara qarşı sabit qalması ölkədə investorların etimadını gücləndirir və uzunmüddətli iqtisadi planlaşdırmanı asanlaşdırır. Eyni zamanda, avronun nisbətən ucuzlaşması ölkənin Avropa ilə ticarətində qiymət rəqabətliliyini artırmaq üçün əlverişli şərait yarada bilər.

Makroiqtisadi perspektivlərə nəzər salsaq, manatın sabit qalması inflyasiya göstəricilərinə də müsbət təsir göstərəcək. Əgər valyutanın məzənnəsi kəskin dəyişməsə, idxal olunan məhsulların qiymətində ciddi artım müşahidə olunmayacaq və nəticədə istehlak bazarında sabitlik qorunacaq. Bu, həm də əhalinin alıcılıq qabiliyyətinin qorunmasına xidmət edəcək. Analitiklərin qənaətinə görə, manatın kursunda ciddi dalğalanmalar gözlənilmir və 2030-cu ilə qədər milli valyutanın sabitliyi qorunacaq.

Beləliklə, Avropa Yenidənqurma və İnkişaf Bankının və "Economist Intelligence Unit"un proqnoz baxışları təsdiqləyir ki, Azərbaycanda yürüdülən məzənnə siyasəti "üzən məzənnə"yə keçidə əsaslanmaqla xarici valyutalar qarşısında öz dayanıqlılığını qoruyub saxlamağa qadirdir. Bu isə Azərbaycan iqtisadiyyatına inamı formalaşdırmaq, daxili və xarici investisiyaları cəlb etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bir məqamı da qeyd etmək lazımdır ki, qlobal bazarlarda dəyişkən neft qiymətləri manatın sabitliyinə dolayı təsirlər göstərsə də, məzənnə neftin qiymətindən birbaşa asılı deyil. Dövlət Neft Fondu əsas maliyyə təchizatçısı kimi valyuta bazarında xarici tələb və təklifi tənzimləyir, bu istiqamətdə mühüm dayaq rolunu oynayır.

*E.CƏFƏRLİ*

# Virciniya ştatında mühüm görüş...

## ABŞ dünyaya mesaj göndərir

ABŞ generalları bir araya toplaşacaqlar. Yaxın zamanda ölkənin hərbi-siyasi tarixində mühüm hadisənin baş verməsinin şahidi ola bilərik. Qeyd edək ki, ABŞ-ın müdafiə naziri Pit Heqset ölkənin Silahlı Qüvvələrinin yüzlərlə general və admiralına sentyabrın 30-da Virciniya ştatında Dəniz Piyadaları Korpusunun bazasına toplaşmağı əmr edib. "The Washington Post" qəzeti qeyd edir ki, qeyri-adi direktiv ABŞ-ın dünyadakı demək olar bütün yüksək rütbəli hərbi komandirlərinə göndərilib. Sərəncam Pentaqonun fəaliyyətini müvəqqəti dayandırması fonunda və Pentaqonda Heqset komandasının yüksək hərbi komandanlıqların birləşdirilməsi planlarını elan etməsindən sonra verilib. Nəşr, həmçinin məlumat verib ki, görüşdə ABŞ və digər ölkələrdən təxminən 800 general və admiralın, o cümlədən Avropa, Yaxın Şərq və Asiya-Sakit okean regionunda yerləşən münaqişə zonalarındakı komandirlər və yüksək rütbəli zabitlərin iştirakı gözlənilir. Əmr komandanlıq vəzifələrində briqada generalı və ondan yuxarı və ya onlara bərabər tutulan hərbi rütbəli zabitlərə, habelə onların sıralarına daxil olan yüksək rütbəli zabitlərə şamil edilir. ABŞ generallarının görüşünə Prezident Donald Trampın da qatılacağı gözlənilir. Tramp "Truth Social" şəbəkə hesabında bildirib ki, sentyabrın 30-da Virciniya ştatında ölkənin müdafiə naziri Pit Heqsetin amerikalı generallar və admirallarla keçirəcəyi görüş onların döyüş ruhunu möhkəmləndirməyə yönəlib.

"Mən generallara demək istəyirəm ki, biz onları sevirik, onlar hörmətli liderlərdirlər, güclü, qətiyyətli,



ağıllı və mərhəmətli olsunlar. Bütün məsələ bunda - hərbi birlik ruhundadır. Artıq bunu etməyin vaxtıdır", - deyə o, vurğulayıb.

**Görüşün məqsədi nədir?**

Bir sıra Qərb ekspertləri hesab edirlər ki, sentyabrın 30-da Virciniya ştatında Amerika generallarının görüşünün təşkilində əsas məqsəd ABŞ-ın daxili və xarici təhlükəsizliyinə diqqətin artırılması, o cümlədən ölkənin qlobal müdafiə-təhlükəsizlik strategiyasının yenidən nəzərdən keçirilməsi ilə bağlıdır. Ekspertlər belə bir fikirdədirlər ki, ABŞ dünyanın müxtəlif bölgələrində öz ənənəvi hərbi-strateji mövqeyini qorumaq üçün səylərini artıracaq. Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ABŞ yeni dünya nizamı və qlobal təhlükəsizlik sisteminin formalaşmasında aktiv rol oynamaq niyyətindədir. "Bu gün dünyanın bir çox bölgələrində münaqişələr yaşanmaqdadır. Şərqi Avropa və Yaxın Şərqdə bu münaqişələrin şahidi oluruq. Hətta Uzaq Şərqdə belə, xüsusilə Tayvan körfəzi ətrafında çox mürəkkəb proseslər cərəyan edir. Bütün hallarda bu münaqişələrin və proseslərin qlobal təsirləri var. Artıq demək olar ki, hazırkı dünya nizamı və qlobal təhlükəsizlik sistemi sıradan çıxmaq üzrədir. Yeni qlobal təhlükəsizlik sisteminin formalaşmasına yönələn mexanizmlər gündəmə gəlir. Təbii ki, bu mexanizmlərin ortaya çıxmasında böyük güc mərkəzlərinin rolu var. ABŞ da bu kimi məsələlərdə öz sözünü deyir. ABŞ-ın dünyanın müxtəlif bölgələrində hərbi bazaları var - Avropa, Yaxın Şərq və Uzaq Şərqdə, xüsusilə də dünyanın dörd okeanı - Sa-




kit, Hind, Atlantik və Şimal Buzlu Okeanda öz hərbi mövcudluğunu davam etdirməkdədir," - deyə İ.Vəlizadə əlavə edib ki, Vaşinqton yeni qlobal münasibətlər sistemində aparıcı və həlledici rol oynamaq niyyətindədir: "Hazırkı proseslər onu deməyə əsas verir ki, Vaşinqton yeni dünya nizamında maraqlarının nəzərə alınmamasından ehtiyatlanır. Bu gün Yaxın Şərqdə yeni regional güc mərkəzləri meydana gəlib. Türkiyə və İran bu istiqamətdə fəallıq nümayiş etdirirlər. Avropada isə Rusiya öz şərtlərini diktə edir. Hazırda həm Şərqi Avropada, həm də Yaxın Şərqdəki münaqişələrdə ABŞ hələ ki, ikinci dərəcəli rol oynayır. ABŞ İsraili və Ukraynanı dəstəkləsə də, münaqişələrə birbaşa müdaxilə etmir. Amma Şərqi Avropa və Yaxın Şərqdə hazırkı hadisələr elə bir xətt üzrə inkişaf edə bilər ki, ABŞ proseslərə müdaxilə etmək məcburiyyətində ola bilər. Vaxtilə - İkinci Dünya müharibəsinin ilk illərində ABŞ müharibəyə qatılmamağa çalışırdı, amma Pörl-Harbor limanının Yaponiya qırıcıları tərəfindən bombalanmasından sonra ABŞ bu dünya müharibəsinə qatılmağa məcbur oldu". Ekspert vurğulayıb ki, Trampın iştirakı ilə ABŞ generallarının görüşü yalnız bir məqsədə söykənib: "ABŞ bu kimi addımlarla dünya ölkələrinə mesaj göndərir ki, Vaşinqton da yeni dünya nizamı və qlobal təhlükəsizlik sistemində öz sözünü deyəcək. Yeni Vaşinqtonun hazırkı qlobal proseslərin gedişatında maraqları nəzərə alınmalıdır".

*Yunis ABDULLAYEV*

---

## İran rialı rekord səviyyədə ucuzlaşıb



Valyuta izləmə saytlarının yazdığına görə, İran rialı bazar günü Birləşmiş Millətlər Təşkilatının sanksiyalarının bərpasından sonra ABŞ dollarına nisbətdə rekord səviyyədə aşağı düşüb.

AZƏRTAC "Əl-Ərəbiyyə" telekanalına istinadla xəbər verir ki, "Bonbast" və "AlanChand" saytlarının verdiyi məlumata görə, qara bazarda İran valyutası dollara nisbətdə təxminən 1,12 milyon rial dəyərində satılır.

Qeyd edilib ki, İran hökuməti bu yaxınlarda rialın denominasiyasını həyata keçirib, amma buna baxmayaraq, yerli valyutanın dəyəri aşağı düşməkdə davam edir.

---

## Məhkəmə Mixeil Saakaşvili barədə yeni qərar çıxarıb

Tbilisi Şəhər Məhkəməsi Maliyyə Nazirliyinin vəsatəti əsasında Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili barədə yeni qərar çıxarıb.

AZƏRTAC xəbər verir ki, qərara əsasən, M. Saakaşvili Dövlət Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Teymuraz Canaşiyanı dövlət büdcəsinə ümumilikdə 9 milyon lari ödəməyə məcbur edib.

Məlumat üçün bildirək ki, onların hər ikisinə qarşı Cinayət Məcəlləsinin 182-ci maddəsinin ikinci və üçüncü hissələri, yəni bir qrup şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə qabaqcadan əlbir olaraq külli miqdarda pul vəsaiti-



ni qanunsuz mənimsəmə ilə bağlı ittiham irəli sürülüb.

Sözügedən iş üzrə M. Saakaşvili 8 il müddətinə azadlıqdan məhrum edilib, T. Canaşiya isə 300 min lari məbləğində cərimə olunub.

---

# Qərb Moldovada qələbə qazandı...

## Rusiya geri addım atacaq?

Moldova bu dəfə də Avropaya inteqrasiya yolunu seçdi. Sentyabrın 28-də Avropanın cənub-şərq regionunda yerləşən bu ölkədə baş tutan parlament seçkilərinin nəticələri Qərbin xeyrinə yekunlaşıb. Belə ki, Moldovada səslərin 99,38 faizi sayıldıqdan sonra Prezident Maya Sandunun rəhbərlik etdiyi Avropayönlü Fəaliyyət və Həmrəylik Partiyası (PAS) səslərin 50,2 faizini toplayıb - 101 mandatdan ibarət olan parlamentdə yerlərin 52-ni qazanıb. İkinci yerdə isə 24,31 faiz səslə keçmiş prezident İqor Dodonun Rusiyayönümlü Vətənpərvər Seçki Bloku qərarlaşıb. Digər müxalifət partiyalar - Alternativ (8 faiz), "Renato Usatii" - Bizim Partiya (6,22 faiz) və ultra-sağçı Evdə Demokratiya partiyası da (5,64 faiz) parlamentə daxil olub. Hakim Fəaliyyət və Həmrəylik Partiyası seçkilərdə qələbə qazansa da, hökumət formalaşdırmaq üçün tələb olunan mandata sahib deyil - Ölkə konstitusiyasına görə, bunun üçün siyasi partiya parlamentdə 68 yerə sahib olmalıdır. Böyük ehtimalla, hakim partiya parlamentə daxil olan qərbpərəst partiyalar ilə koalisiyaya gedəcək. Seçkilərin nəticələri elan edildikdən sonra dövlət rəhbəri Maya Sandu öz partiya yoldaşları ilə bərabər qələbəni qeyd edib - o, seçicilərinin qarşısında çıxış edərkən bildirib ki, Moldova demokratiyanın daha da möhkəmlənməsi və Aİ-yə inteqrasiya yolunda addımlarını daha da intensivləşdirəcək. Sandu Rusiyaya qarşı cəbhədə yer alan siyasətçi kimi tanınır.

## Həlledici seçkilər...



Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Moldovada baş tutan son parlament seçkiləri geosiyasi əhəmiyyət kəsb edir. "Moldovada son seçkilərin nəticələri Rusiyanın Qərb qarşısında məğlubiyyəti kimi qiymətləndirilir. Sözsüz ki, bu, təsadüfi deyil. Bu seçkilər həm Avropa İttifaqı, həm də Rusiya üçün həlledici idi. Artıq belə bir məlumatlar dolaşmaqdadır ki, Moskva Moldovada seçkilərin nəticələrinə təsir etmək üçün müxtəlif vasitələrdən istifadə etməyə başlayıb. Amma Moskva bununla barışmasa da, faktiki olaraq, bu seçkilərdə Qərb qarşısında məğlub oldu. Avropa İttifaqına gəlincə, Aİ mövcud şəraitdən istifadə edib Moldovada geostrateji, geosiyasi və geoiqtisadi mövqeyini



A.Nərimanlı hesab edir ki, önümüzdəki dövrlərdə Moldovanın Avropa İttifaqı daha da möhkəmləndirəcək, ən əsası da Rusiyanın bu ölkədə təsir imkanlarının məhdudlaşdırılması istiqamətində daha ciddi tədbirlər görəcək. Brüssel Kişinyovun Aİ-yə inteqrasiyasını sürətləndirmək üçün xüsusi planlar hazırlaya, o cümlədən hazırkı hakimiyyəti Rusiyaya bağlı olan siyasi qüvvələr üzərində təzyiqləri artırmağa sövq edə bilər. Qərbyönümlü hakimiyyətin də Kremlə yaxın olan qüvvələri sıradan çıxarmaq niyyətinə inteqrasiyası güclənəcək. Amma... "Rusiya Moldovada təsir imkanlarını qorumaq üçün əlindən gələni edəcək. Son seçkilərdə qərbpərəst qüvvələrin qələbəsini Moldovanın Rusiyanın təsir dairəsindən xilası kimi dəyərləndirmək düzgün deyil. Bildiyimiz kimi,

## Moldova geosiyasi mübarizə poliqonuna çevrilə bilər

bu gün Ukrayna Rusiya ilə NATO arasında hərbi poliqona çevrilib. Moldovanın da Rusiya ilə Qərb arasında geosiyasi mübarizə poliqonuna çevrilməsi ehtimalı var. Şərqi Avropa ölkələri NATO-ya üzv olduqlarından Moskva onların təhlükəsizliyinə o qədər də ciddi təhdid törətməyə cəhd etmir, amma Moldovada belə bir hal yoxdur - bu ölkə alyansın üzvü deyil. Ona görə də Rusiya Moldovada öz siyasi mövqeyini əldən verməməyə çalışacaq, hətta bunun üçün müxtəlif təzyiq vasitələrindən istifadə edə bilər. Təzyiq vasitələri nə ola bilər? Birincisi, Moskvanın ölkə daxilində qarşıqlıq və xaos yaratmaq üçün ona bağlı siyasi qüvvələri aktivləşdirməsi istisna ola bilməz, ikincisi, Moldovanın enerji təhlükəsizliyinə təhdid yarada bilər və nəhayət, Dnestryanı kartından istifadəyə əl atması da mümkündür," - deyə A.Nərimanlı əlavə edib ki, Kremlin Ukrayna cəbhəsində əsas hədəflərindən biri Odessanı nəzarətə götürüb Moldovanın Dnestryanı bölgəsinə çıxış imkanı əldə etməkdir: "Ukraynada müharibənin gedişatı Rusiyanın xeyrinə olmasa belə, bu plan Kremlin gündəmində əsas prioritetlərdən biri olaraq qalır. Ukraynada nə zamansa atəşkəs təmin oluna bilər, amma bu atəşkəs müvəqqəti xarakter daşıyacaq. Bir neçə ildən sonra yenidən hərbi qarşıdurmanın başlayacağı təqdirdə Rusiyanın hədəfində Odessada olması da istisna deyil," - deyə A.Nərimanlı vurğulayıb.

da olacaq. Moldova Rusiya üçün strateji cəhətdən əhəmiyyətli bir regiondur. Kreml bu regionu itirmək istəmir. Rusiya bu ölkə ilə bağlı məqsədlərindən əl çəkməyəcək".

*Yunis ABDULLAYEV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Paytaxtda mühüm tədbir...

## Bakı İqlim Fəaliyyəti Həftəsi başladı

Dünəndən etibarən Bakı İqlim Fəaliyyəti Həftəsi 2025 (BCAW2025) işə başlayıb. Qeyd edək ki, tədbir oktyabrın 3-nə kimi keçiriləcək. BCAW2025 regionun iqlim təqvimində mühüm tədbirlərdən biridir və dünya liderlərini, mütəxəssisləri, sərmayəçiləri, sahibkarları, gəncləri və icmaları iqlim həllərinə fokuslanaraq bir araya gətirir. BCAW2025 çərçivəsində əsas diqqət iqlim tədbirlərinin sürətləndirilməsinə, eləcə də hökumətlər, şirkətlər, elmi dairələr və icma nümayəndələri arasında iqlim üzrə həllyönümlü əməkdaşlığın inkişafına yönəldiləcək.

## Strateji hədəflərimizə nail ola bildik

Prezidentin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un Prezidenti Muxtar Babayev bildirib ki, Bakı İqlim Fəaliyyəti Həftəsi COP29-dan qalan irsin vacib hissəsidir: “Keçən il bu vaxt Azərbaycan COP29-a ev sahibliyi etməyə hazırlaşırdı və bütün dünyanın diqqəti üzərimizdə idi. Çoxtərəfli tərəfdaşlıqların qurulması baxımından COP29 mühüm əhəmiyyət daşıdı və biz strateji hədəflərimizə nail ola bildik”.

O, əlavə edib ki, hazırda 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunu ölkəmizdə keçirmək üçün müvafiq işlər həyata keçirilir. Bu uğurlar isə Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasətin bariz nəticəsidir.



## XİN-də iqlim fəaliyyəti üzrə bölmə yaradılıb

Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin sözlərinə görə, Azərbaycan Xarici İşlər Nazirliyində iqlim fəaliyyəti ilə bağlı xüsusi diplomatik bölmə yaradılıb: “Bizim ev sahibliyimizdə keçirilən COP29 çox uğurlu olub. Bizim bunu deməyə əsasımız var. Çünki ən çox iştirakçı, təxminən 70 minə yaxın insan burada iştirak edib. Azərbaycan bu tədbirdə böyük inklüzivliyin mövcudluğunu təmin edib. Azərbaycan həm hökumətləri, həm də vətəndaş cəmiyyətinin üzvlərini COP29-a cəlb edə bilmişdi”.

XİN rəhbərinin müavini BMT-də bir sıra ölkələrin nümayəndələri ilə görüş keçirildiyini və bu ölkələrin bəzilərini iqlim fəaliyyət planı yaratdığını qeyd edib. Yalçın Rəfiyev iqlim fəaliyyəti ilə əlaqədar öhdəlik götürən ölkələri öz öhdəliklərinə əməl etməyə çağırıb və COP29 irsinin davam etdirilməli olduğunu vurğulayıb.

## Azərbaycan 2030-cu ilə qədər...

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli bildirib ki, iqlim böhranı artıq uzaq gələcəyin problemi deyil, bugünkü reallıqdır: “İqlim dəyişikliyi davamlı şəkildə həyatımızı təsirləndirir, təbiəti və ekosistemləri zəiflədir. Onun ətraf mühitə mənfi təsirləri gündən-günə daha açıq şəkildə üzə çıxır. Bu reallıq bizə göstərir ki, hər bir ölkə və cəmiyyət qətiyyətli addımlar atmalıdır.

Keçən il COP29-un Bakıda keçirilməsi ilə Azərbaycan böyük bir məsuliyyətin daşıyıcısına çevrilib. Bu məsuliyyət yalnız dialoqlar üçün platforma yaratmaqla bitməyib. Əsas hədəf real nəticələr əldə etmək olub. COP29 zamanı qəbul edilən qərarlar və qurulan çoxtərəfli tərəfdaşlıqlar bunun ən bariz nümunəsi olub. Azərbaycan artıq 2030-cu ilə qədər olan milli fəaliyyət proqramında iqlim hədəflərini müəyyənləşdirib. Buraya bərpaolunan enerji mənbələrinin inkişafı, tullantıların azaldılması, ekoloji davamlılığın gücləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi daxildir. Bu siyasət bu gün öz müsbət nəticələrini göstərməyə başlayıb. Son illərdə qeyri-neft sektoruna aid məhsulların ixracında müşahidə edilən artım ölkəmizin yeni iqtisadi modelə keçidinin göstəricisidir”.

## Bütün ölkələr mübarizə aparmalıdır

BMT Baş katibinin davamlı enerji üzrə xüsusi nümayəndəsi Damilola Ogunbiyi bildirib ki, bütün ölkələr bərabər şəkildə iqlim dəyişikliyi ilə mübarizə aparmalıdır: “Burada alternativ enerji mənbələrindən istifadənin önəmliliyi qeyd olunmalıdır. Hər bir ləngimə insan itkisinə gətirib çıxara bilər”.

BCAW2025-də müzakirə olunan məsələlərin Braziliyada keçiriləcək COP30-da davam edəcəyini diqqətə çatdıran xüsusi nümayəndə iqlim dəyişikliyi problemlərinin aradan qaldırılmasının qısa müddətdə baş verməli olduğunu bildirib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

## Bakıda keçirilən tədbir mühüm platformadır

UNFCCC təşkilatının icraçı direktoru Saymon Still qeyd edib ki, iqlim böhranı ilə mübarizə hökumətlərin texnoloji və maliyyə dəstəyi olmadan mümkün deyil: “Biz təşkilatlar olaraq təkbaşına heç bir şeyin öhdəsindən gələ bilmərik. Burada bizə hökumətlər tərəfindən maliyyə dəstəyi təmin olunmalıdır ki, müasir texnologiyalardan istifadə edə bilək. Hökumətlər vacib olan ekoloji tədbirləri görməli və uzunmüddətli siyasi qərarlar verməlidir. Hesab edirəm ki, Bakıda keçirilən bu tədbir tərəfdaşlıqlar qurmaq və hökumətlərə mesajımızı çatdırmaq üçün mühüm bir platformadır”.

***Sahib***

# Sözün səssiz qəhrəmanları!

## Tərcüməçilər sözün sədasını dünyaya daşıyanlardır...

Tərcüməçilər bir dildən digərinə sözləri çevirən vasitəçilər deyil, eyni zamanda mədəniyyətləri qovuşduran, fərqli dünyaların pəncərələrini bir-birinə açan şəxslərdir. Onların işi yalnız sözləri çevirmək yox, ruhu qorumaq, konteksti anlamaq və ən əsası, qarşı tərəfə doğru şəkildə ötürməkdir. Bu gün qloballaşan dünyada tərcümənin əhəmiyyəti gün keçdikcə artır. Diplomatiya danışıqlarında bir sözün düzgün tərcüməsi savaşın qarşısını ala, səhv tərcümə isə gərginlik yarada bilər. Elm dünyasında bir tədqiqatın tərcüməsi minlərlə alimə yeni fikirlər aça bilər. Ədəbiyyatda bir əsərin uğurlu tərcüməsi başqa bir xalqın ürəyinə toxunar.

## 34 yaşlı bayram...

Bu gün Beynəlxalq Tərcüməçilər Günüdür. Beynəlxalq Tərcüməçilər Federasiyasının (FİT) qərarı ilə bu bayram 1991-ci ildən etibarən hər il sentyabrın 30-da qeyd edilir. Bibliyanı (Vulqatı) latın dilinə tərcümə etmiş və ənənəyə görə tərcüməçilərin hamisi hesab olunan İeronim Stridonski 420-ci il sentyabrın 30-da dünyasını dəyişdiyinə görə, bu tarix tərcüməçilər günü kimi təyin edilib.

386-cı ildə İeronim Vifleyemdə məskunlaşıb və burada uzun illər boyu Bibliyanı (Əhdi-Ətiqi və Əhdi-Cədidi) latın dilinə tərcümə edib. 11 əsrdən sonra Trident kilsəsi məhz bu tərcüməni Müqəddəs yazının (Vulqatın) rəsmi latın mətni elan edib. Bundan əlavə, İeronim “qlaqolitsa” deyilən qədim slavyan əlifbasının banisi hesab edilir.




## Azərbaycanda tərcüməçilik tarixi

Azərbaycanda da tərcümə sahəsi mühüm yer tutur. Azərbaycanda tərcümə işinin kökləri orta əsrlərə, xüsusilə IX-XII əsrlərə gedib çıxır. Bu dövrdə Şərqin elm mərkəzlərindən olan Gəncə, Şamaxı, Naxçıvan və Təbriz kimi şəhərlərdə tərcümə fəaliyyəti geniş vüsət almışdı. O dövrdə ərəb dili elm və mədəniyyət dili olduğuna görə, ərəb dilindən fars və türk dillərinə, o cümlədən Azərbaycan türkcəsinə tərcümələr edilirdi. Ən vacib simalardan biri Nizami Gəncəvi idi. O, yalnız böyük şair deyil, həm də bir çox qədim mənbələri - yunan, hind və ərəb qaynaqlarını öyrənmiş, onların ideyalarını öz yaradıcılığına gətirmişdi. Bu da tərcümə fəaliyyətinin nümunəsi idi.

## XIX əsr - maarifçilik dövründə tərcümə

XIX əsrdə maarifçi ziyalıların fəaliyyəti ilə Azərbaycanda tərcümə tamamilə yeni mərhələyə qədəm qoydu. Bu dövrün görkəmli şəxsiyyətləri - Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Sədi bəy Əfəndizadə və başqaları Avropa ədəbiyyatını, elmi əsərləri və maarifçi ideyaları Azərbaycan dilinə tərcümə etməklə xalqa çatdırmağa çalışırdılar.

M.F. Axundzadə yazırdı ki, xalqların tərəqqisi üçün maarif lazımdır və bu maarifi ancaq dillər arasında körpülər - tərcümələr təmin edə bilər.

Tərcüməçilər daim axtarışdadırlar. Onlar yalnız dili bilməklə kifayətlənmir, tarix, ədəbiyyat, din, psixologiya, siyasət və digər sahələri öyrənməli olurlar. Bəzən bir şeiri tərcümə etmək üçün günlərlə düşünür, bir elmi məqalənin tərcüməsi üçün isə yüzlərlə termin axtarırlar. Onların işi çox vaxt pərdə arxasında qalır, amma hər dəfə xarici bir filmi ana dilimizdə izləyəndə, başqa bir xalqın kitabını oxuyanda unutmamalıyıq ki, orada tərcüməçilərin əməyi var.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Ordubad rayon təşkilatının kollektivi rayon təşkilatının məsləhətçisi

**TƏRANƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

## İtmişdir

Əbilov Elmir Elnur oğluna Füzuli rayon 56 saylı tam orta məktəb tərəfindən verilmiş AA0859861 nömrəli tam orta təhsil haqqında Attestat itdiyi üçün etibarsız sayılır.

## Azercell İT ixtisası üzrə ən yüksək nəticə göstərmiş tələbə qızları təbrik etdi

***Mobil operator gənc qızların İT və İKT sahəsində inkişafını dəstəkləməyə davam edir***

Azercell Telekom gənc qızların İT və İKT sahəsində inkişafını təşviq etmək istiqamətində fəaliyyətini davam etdirir. Ötən il start verilən “Uğur qızlarımızındır” təşəbbüsünün davamı olaraq, bu il də Kompüter elmləri və İnformasiya təhlükəsizliyi ixtisasları üzrə ən yüksək bal toplayan tələbə qızlarla xüsusi görüş keçirilib.




Tələbələri təbrik edən Azercell-in Hüquq və Data Strategiyası üzrə Baş direktoru Şirin Əliyeva deyib: “Gənc qızların İT sahəsində uğurları onların şəxsi nailiyyəti olmaqla bərabər, həm də ölkənin rəqəmsal gələcəyinə verdikləri töhfədir. Azercell olaraq biz onların bu yolda daha da irəliləməsi üçün yeni imkanlar yaratmağa və potensiallarını reallaşdırmalarına dəstək olmağa hazırıq.”

Azercell-in Korporativ və Marketinq Ünsiyyət Vasitələri departamentinin direktoru Sona Abbasova tələbələrə şirkətin korporativ məsuliyyət strategiyası, xüsusilə qadınların gücləndirilməsi və inkişafı istiqamətində görülən işlər haqqında məlumat verib: “Azercell üçün təhsilə, habelə bilik və bacarıqların artırılmasına dəstək vermək əsas prioritetlərdəndir. Biz inanırıq ki, bu təşəbbüslə gənclərin potensialını üzə çıxarmaq və onların İT sahəsində inkişafına yardım göstərmək mümkündür.”

Görüşdə tələbələrə dəyərli hədiyyələr və “DigiMax 10” tarif paketinə bir illik abunəlik təqdim olunub.

Azercell uzun illərdir təqaüd proqramları, təcrübə imkanları və müxtəlif sosial layihələr vasitəsilə gənclərin bilik və bacarıqlarını inkişaf etdirməsinə dəstək göstərir və onların peşəkar mütəxəssis kimi formalaşmasına töhfə verir.

Azercell bu il ali məktəbə qəbul olmuş bütün tələbələri təbrik edir, onlara uğurlar arzulayır!

Qeyd edək ki, tələbələrin siyahısı ixtisas seçiminin nəticələrinə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən təqdim olunub.



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5027**
**Sifariş: 2025**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova